# YAZARLAR

**(aylıq ədəbi-bədii, elmi jurnal)**

**Mart 2023 (27)**

(2021-ci ildən çıxır)

**Təsisçi və baş redaktor:** Zaur Ustac.

**Texniki redaktor:** Tuncay Şəhrili.

**Məsul katib:** Araz Şəhrili.

**Yaradıcılıq məsələləri üzrə menecer:** **Şəlalə CAMAL.**

**İctimaiyyətlə əlaqələr üzrə menecer:** **Nəzakət KƏRİMOVA-ƏHMƏDOVA**

**Fəxri redaksiya heyəti:** Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Lev Tolstoy, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Cek London, Əliqulu Qəmküsar, Vintsas Kreve, Üzeyir Hacıbəyov, Pənahi Makulu, Səməd Vurğun, Şəhriyar, Bayram Bayramov, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Cabir Novruz, İldırım Əkbəroğlu (Füzuli), Alı Mustafayev, Mustafa Müseyiboğlu, Ülvi Bünyadzadə.

**Redaksiya heyəti:** Ayətxan Ziyad (İsgəndərov), Akif Abbasov, Mahirə Nağıqızı, Vüqar Əhməd, Təranə Məmməd, Aydın Xan Əbilov, Seymur Sönməz (Paşayev), Kamal Camalov, Leyli Novruzova, Aysel Nazim, Nuranə Rafailqızı, Səma Muğanna, Şəlalə Camal, Əli bəy Azəri, Ülvi Aydın, Fəridə Abdul, Taleh Xəlilov, Zaur Ərmuğan, Leyla Yaşar, Yadigar Təvəkgül, Aytac İbrahim, Mövlud Ağamməd, Əsgər Ordubadlı, Alik Dənizsevər , Rafiq Hümmət (Gürcüstan), Leyla Oruc, Faruk Habiboğlu (Türkiyə), Əbülfəz Əhməd (Almaniya), Günay Əliyeva (Norveç). Caroline Laurent Turunc (Fransa)

## BU SAYIMIZDA

Baş redaktordan ........................................................... 3
Yazarlar jurnalı ........................................................... 4
Adilə Nəzər. Aşıq Ələsgər haqqında. ................................. 5
Sərvanə Dağtumas. Ç.Aytmatovun "Cəmilə" hekayəsi. .... 20
Gülbəniz Abbasova. Ana ürəyi ........................................... 35
Əli Kərim. O qız. (şeirlər)................................................. 40
Zaur Ustac. Ana dilim. (şeirlər) ......................................... 53
Murad Məmmədov. Yeni şeirlər......................................... 56
Tuncay Şəhrili. Ana. (şeir)................................................. 64
"Yazarlar" foto qalereya (fotolar)........................................ 65
"Ana" Natiq Nəcəfzadə. (rəsm) .......................................... 67

Salam olsun, Azərbaycanın ilk hibrid jurnalı olan "Yazarlar"ın çox dəyərli yazarları və oxucuları! Bizim yalnız bir məqsədimiz var ki, o da ***"Yaradıcı uşaq - gənclərin dövrü mətbuatda çıxışını asanlaşdırmaq , onların tanınmasına köməklik göstərmək"*** olmaqla məramnaməmizdə aydın şəkildə qeyd olumuşdur. Aylıq ədəbi-bədii, elmi jurnal olan "Yazarlar" kitabxanalar üçün ənənəvi qaydada məhdud sayda nəşr olunur və elektron formatda bir neçə sabit, dayanıqlı, təhlükəsiz platformadan PULSUZ olaraq yayımlanır. Jurnalın bu günə qədər çap olunmuş bütün nömrələrini **BİTİK.AZ saytından sifariş yolu ilə əldə edə bilərsiniz. Eyni zamanda Wahtsapp:** (+994) 70-390-39-93
"YAZARLAR, ANCAQ YAZARLAR…" © YAZARLAR



Zaur USTAC

**BAŞ REDAKTORDAN**

Salam olsun, dəyərli oxucular!

Jurnalımızın Mart 2023-cü il (27-ci sayı) ilə görüşünüzə gəlmişik.

Daimi oxucularımza yaxşı məlumdur ki, biz “Yazarlar” olaraq həmişə zamanın nəbzini tutmağa, ədalətli olmağa çalşmışıq. Bu yolda durmadan irəliyə doğru addımladıqca ortaya çıxan problemləri də birlikdə həll edirik. Bizim amalımız birdir və məramnaməmizdə qeyd olunan məqsədi daim uca tutmuşuq, tuturuq, tutacağıq! Hamınıza xoş yaz əhval-ruhiyyəsi arzulayırıq. Bu sayda yer alan yazarlarımız artıq sizə məlum olduğuna görə təkrarçılığa yol verməyə lüzum görmədim. 2023-cü ildə yaz təravətli, güz qoxulu üçüncü buraxılışımızı diqqətinizə təqdim edirik. Buyurun, tanış olun.



## “YAZARLAR” JURNALI

### “Yazarlar” jurnalı öz işini aşağıdakı prinsiplər və sturuktur əsasında qurur:

- Jurnalla əməkdaşlıq edən yazarlar “Müstəqil Yazarlar Konfederasıyası” adlı alt qurumda birləşirlər (məqsəd yaradıcılıq əlaqələrini möhkəmlətmək və bir-birinə dəstək olmaqdan ibarətdir. Heç bir maddi və ticari məqsədi yoxdur. Üzv yazarlar nə qurum, nə də bir-birləri qarşısında heç bir öhdəlik daşımırlar. Üzvülük haqqı nəzərdə tutulmayıb.)
- Gənc yazarlar “Yazarlar dərnəyi” adlı ikinci alt qurumun vasitəsi ilə mütamadi olaraq ustad yazarlardan faydalı məsləhət və tövsiyələr alırlar. Bundan əlavə dərnək əvvəlcədən müəyyən olunmuş layihələr çərçivəsində jurnalın xüsusi buraxılışlarını təşkil edir.
- Müəyyən layihələrin təşkili və gənc yazarların elan olunmuş müsabiqələrə təqdim edilmiş əsərlərinin nəşr olunmaq üçün seçilməsinin obyektivliyini təmin etmək məqsədi ilə tərkibi gizli saxlanılan 5 (beş) nəfər təcrübəli və filoloji təhsili olan yazardan ibarət “Yaradıcılıq Komisiyyası” adlı üçüncü alt qrum yuxarıda qeyd olunduğu kimi ancaq yaradıcılıq məsələləri ilə məşğul olur.
- “Yazarlar” jurnalı bütün sadalanan və burada qeyd olunmamış gündəlik fəaliyyət zamanı ortaya çıxan məsələləri ictimai əsaslarla (ödənişsiz) həyata keçirir.



**Adilə NƏZƏR**

# Aşıq Ələsgər yaradıcılığında irfan məqamları

**Azərbaycan ədəbiyyatının inkişafı prosesində aşıq ədəbiyyatı mühüm yer tutur. İslama qədər bu ədəbiyyatın mənəvi əsaslarını türk inancları, dərviş ənənələri və şaman ayinləri təşkil edib. Türk xalqları islamı qəbul etdikdən sonra şifahi xalq yaradıcılığından gələn aşıq ənənələri zəminində bu ədəbiyyatın nümayəndələri xalqın duyğu və həyəcanının tərcümanına çevrilmişlər. Onlar öz şeir və dastanlarını dildən-dilə, teldən-telə (saz dili), könüldən-könülə ötürməklə keçmişdən bugünə çatdırırlar.**

Aşıq ədəbiyyatının özünəməxsus ədəbiyyat janrı kimi meydana çıxması və formalaşması XVI əsrin sonlarına təsadüf edir. Azərbaycanda müsəlman ictimai-mədəni hadisəsi kimi ortaya çıxan, divan ədəbiyyatı mənsublarının bayağı kimi qələmə verdikləri aşıqlıq ənənəsi zaman keçdikcə öz klassik formalarını yaratmışdır. Yarandığı dövrdə əsasən, "gözəlləmə"yə üstünlük verən aşıqlar getdikcə milli vəznimiz olan hecalarla oxuduqları və sadə dildən istifadə etdikləri

melodik şeirlərdə ictimai həyatın bütün sahələrindən mövzulara müraciət etmiş, özünəməxsus üslub yaratmış, təkmilləşmələrlə bu günə qədər yaşamağa davam edən bir sənət nümayiş etdirərək xalqın diqqət və rəğbətini qazanmışdır. Zaman keçdikcə yaşadıqları cəmiyyətin inanc və dəyərlərindən qidalanan aşıqlar bu mövzuları həmsöhbətlərinin marağına uyğun şeirləşdirmişlər.



***DƏDƏ ƏLƏSGƏR***

Azərbaycanın milli aşıq ədəbiyyatı tarixində önəmli yeri olan ustad aşıqlardan biri də Aşıq Ələsgərdir. Sonralar Dədə Ələsgər adı ilə tanınan bu böyük sənətkar fitri istedadı ilə, şeirin dodaqdəyməz, müxəmməs, qıfılbənd, təcnis, cığalı təcnis, gəraylı, divani növlərində müxtəlif məzmunlu sənət nümunələri yaratmaqla aşıq sənətinin zirvəsini fəth etmişdir.

Bildiyimiz kimi, aşıq şeirində qapalı şəkildə bəyan edilən, içində adın, nəsnənin, dünyəvi və İlahi bilgilərin gizləndiyi sirlər var. Bəlkə də buna görədir ki, Aşıq Ələsgər də özündən əvvəlki ustadları kimi "Haqq aşığı" adlandırılıb. Çünki o da "vergili", "buta verilən", "badə içirilən" aşıqlardan biri kimi özünəməxsus unikal bir yaradıcılıq yolu keçmişdir.

Aşıq ədəbiyyatında yuxu motivinin izləri çox qədimlərə gedib çıxır. Yuxu motivi türk xalq ədəbiyyatında, xüsusilə xalq nağıllarında, dastanlarda yer alır. Bu motiv bir çox aşıqların, o cümlədən, Aşıq Ələsgərin də həyat hekayəsində görünür. O, özündəki bu vergini belə izah edir:

**Şəhrin şöləsindən buldum bələdi,**
**Xoş gəldi xoşuma halı qabaqda.**
**Pir mana göstərdi şah məqamını,**
**Gördüm cəmdi çox calalı qabaqda.**

Türk ədəbiyyatında yuxu motivi mürəkkəb quruluşa malikdir. Belə ki, yuxuda "buta verilən" adam, yuxuda öz vəzifələrini də öyrənir – saz çalmaq, söz qoşmaq, İlahi bilgilərdən hali edilmək, yuxuda görüb sevdiyi qızı axtarıb tapmaq və s. kimi xüsusi qabiliyyətlərlə sadə şəxsiyyətdən sənətkar şəxsiyyətə keçirlər ki, bu da onların ustad aşıq olmağa başlamasının, daha doğrusu, ifaçı aşıqdan yaradıcı aşığa çevrilməsinin ənənəvi elementi kimi görünən mühüm yoludur. Aşıq Ələsgər "Peyğəmbərin meracı" şeirində yazır:

**Yetişdi hücrəyə əzizü əzim,**
**Şahi-Mərdan dedi: "Meracın qədim!"**
**Göstərdi almanı, etdi təbəssüm,**
**Buyurdu: "Hər işin sirri-qüdrətdi".**

Şeirdən göründüyü kimi, Aşıq Ələsgərin özündə baş verən bu nirvana halını (buddizm fəlsəfəsində arzulardan, iztirablardan azadolma anı) peyğəmbərin meracına bənzədir. Folklorda "vergi" şərbət, alma, nar, çörək, üzüm, bir cam su kimi istənilən qida da ola bilər, əsas olan verilənin və qəbul olunanın nəticəsində yaranan mənəvi dəyişiklikdir. Bu şeirdə Aşıq Ələsgər "pir"in ona alma uzadıb – şah məqamını göstərdiyini qeyd edir. Sənətkar "Yüküm" şeirində yenə eyni məqama işarə edir.

**Biçarə Aşıq Ələsgər,**
**Sığın Şahi-Heydara;**
**Onun damənindən tutan**
**Məhşərdə yanmaz nara.**
**Pirim mana nüsrət verib,**
**Bu gün çıxdım bazara;**
**Sən sərrafsan, aç xırd elə,**
**Bax gör, nə maldı yüküm!**

Burada da sığınacağını “Pirim” dediyi “Şahi-Heydar” adlandırır. Bir başqa şeirində əsli-zatı ilə şərəfli, ləyaqətli ad qazanan igidə xitabən yazdığı “Dəli Alı” şeirində deyir:

**Gün kimi aləmi tutubdu adı,**
**İyidlər sultanı, xanı Dəli Alı.**
**Pirim – Şahi-Mərdan verib muradı,**
**Artırıb şövkəti, şanı Dəli Alı.**
**Dərs alıbdı o, Əliyyi-əladan,**
**Xof eyləmir Xeybər kimi qaladan.**
**Gəzən zəlzələdən, yaman bəladan**
**Hifz eyləsin kərəmkanı, Dəli Alı!**

Və yaxud:

**Oxuram inna-fətəhna,**
**Mətləb allam yuxuda;**
**Şahi-Mərdan nökəriyəm,**
**Dərsimi pünhan verir.**

Qeyd etmək yerinə düşər ki, “Şahi-Heydar”, “Şahi-Mərdan” İslam Peyğəmbərinin canişini və vəlisi Həzrət Əlinin ləqəbi kimi poeziyada çox işlədilib. Məlum olduğu kimi, Həsən Bəsri və Həllac Mənsurun bütün mənəvi aləmi Hz. Əlinin qüdrətindən qidalanır. Yazıb-oxumaq bilməyən Aşıq Ələsgər o qədər işıqlı və pak idi ki, bu biliklərini ağızdan-ağıza əxz edərək onlardakı

dərin mənaları aça bilir və sadə şeir dili vasitəsilə müasirlərinə çatdıra bilirdi.

**Yazıq Ələsgərəm, bir kəminə qul,**
**Əysik sözü hərgiz etmərəm qəbul.**
**Bəndeyi-xudayam, ümməti-Rəsul,**
**Dost tutmuşam Şahi-Mərdan Əlini.**
**Dar günümdə yetiş dada,**
**Ya Şahi-Mərdan ağa!**
**Nitq ver, meydan içində**
**Qoyma sərgərdan, ağa!**
**Həm Əlisən, həm Vəlisən,**
**Həm səxisən, həm səxa,**
**Həmi dildə zikrim sənsən,**
**Həmi əzbərdən, ağa!**

“Vergi” aşıq ədəbiyyatında şeir demək (bir çox aşıqların, ozanların yazıb-oxuma savadları olmayıb) bacarığına yiyələnməkdə, dini bilikləri və lədun elmini öyrənməkdə, bir növü dərvişlik, ozanlıq xüsusiyyətlərini əldə etməkdə mühüm amildir. Yuxarıdakı nümunələrə əsaslanaraq demək olar ki, Aşıq Ələsgər “vergi”sini yuxuda Həzrət Əlidən alıb.

İstisnalar olsa da, sözügedən “vergi” adətən böyük bir kədər və ya qorxudan sonra, 10-20 yaş arasında baş verir. Tədqiqatlara görə, Aşıq Ələsgər də təxminən 17-18 yaşlarında sevdiyi Səhnəbanudan ayrıldıqdan sonra, onun sevgisilə kədərlə “yüklənmiş” və bədahətən şeirlər qoşmuş, məzmun, forma rəngarəngliyi, saf xalq dili ilə qoşma, bayatı, gəraylı ilə bərabər, irfan sirlərini özündə ehtiva edən, çətin şeir növü sayılan qıfılbəndlər söyləməyə başlamışdır. Bu, Ələsgərin aşiqlikdən aşıqlığa keçid yolu idi ki, gəlib “Haqq Aşığı” (aşiqi)ndə birləşirdi.

Bundan sonra, bir çox şeirlərində "Quran"dan ayələrin, 12 imamın, xüsusilə İmam Əlinin adı keçir. "İmamlar" şeirini *"Bismillahir-rəhmanir-rəhim!" – deyib, Sidq ilə çağırram Şahi-Heydəri"* misraları ilə başlayıb, sıra ilə hər bənddə bir imamın adını çəkməklə davam edir və:

**Mehdinin şəninə gəlibdi ayat,**
**İsminə möminlər verir salavat.**
**Yovmi-ərəsətdə etmə xəcalət,**
**Yandırma odlara qul Ələsgəri! –**
deyərək bitirir. "Qabaqda" şeirində:

**Dünyada əl çəkmə sövmü səlatdan,**
**Təmiz ver, qalmasın xümsü zəkatdan.**
**Ələsgər, xof etmə puli-Siratdan,**
**İrəhbərdi Cənab Əli qabaqda**
– deyərək Hz. Əlini rəhbər tutduğunu diqqətə çatdırır.

*Haşiyə:* Ustad sənətkarın bəzi şeirləri məzmun etibarilə "Quran"la, şəriətlə, hədislərlə bağlı olduğuna görə, Sovet dövründə dərc olunması qadağan edilib. Eyni zamanda, "Qələm", "Çəksən", "Görünsün", "Qaçaqaç", "Məni", "Düşdü" və başqa şeirləri isə o vaxt yaşanan inqilabdan və Azərbaycan türklərinin öz dədə-baba yurdlarından sürgün olunmasından bəhs etdiyi üçün məhz həmin dönəmdə dərc olunmayıb, sonralar el aşıqlarından toplanaraq kitaba salınıb.
Aşıq Ələsgərin Hz. Əliyə olan bağı "Ya Əli", "Yaxşı hörmət ilə, təmiz ad ilə", "Olmaz", "Məhəmməd", "Keçmişəm", "Rənc Ali-Əba", "Qan ağla, gözüm, şahi-şəhidana bu gündə" (mərsiyə), "Sənsən", "Şahi-Heydəri", "Vardır" və s. şeirlərində daha aydın görünür. O cümlədən, "Baş endirir" şeirində ustad, öz biliyinə, elminin dərinliyinə, inancının gücünə əsaslanaraq, başqa aşıqlardan üstünlüyünü bildirir, onları dərya, özünü ümman adlandırır:

**…Ölməyincə bu sevdadan**
**Çətin dönəm, usanam;**
**Həqiqətdən dərs almışam,**
**Şəriətdən söz qanam.**
**Şahi-Mərdan sayəsində**
**Elm içində ümmanam;**
**Dəryaların qaydasıdı,**
**Ümmana baş endirir.**

Aşıq Ələsgər özündəki bu gücü – islam dininin həqiqətini, sufi təriqətinin mərifətini aşıq sənətinin – sözün və sazın (musiqinin) gücü ilə birləşdirirdi.

**Ahəngər deyiləm, naşı bəzirgan,**
**Gözüm dürdanədə, a yəməndədi.**
**…Bir sazım var, yox pərdəsi, nə simi,**
**Onu çalıb, kim tərpədər nə simi?**
**Firdovsi, Fizuli, Hafiz, Nəsimi –**
**Onlar da yazdığı, ayə, məndədi.**

Ustad "naşı bəzirgan"lara bildirmək istəyirdi ki, o, suyun ahənginə uyub gəlmir, onun gözü dürrdə-dürdanədədir. Yəni, həyatda mücadilə etmək mübarizlər üçün hadisə deyil, həyat tərzidir. Burada, "özünü bilmə"nin ideologiyanı aşan tərəfi də var – bu inancdır. İnanc bir varlıq formasıdır ki, insanın həyata, insanlığa, təbiətə baxış tərzini, hətta arzularını da müəyyən edir. Bu fikir, Hz. Əlinin həyatı, şücaəti, mərdliyi, mərifəti ətrafında formalaşır, ona olan inancda, onun verdiyi "vergi" ilə açıqlanır.

Qeyd edək ki, bu sevgi təkcə Aşıq Ələsgər yaradıcılığında deyil, ümumiyyətlə, türk ədəbiyyatında bütün irfani düşüncələr, xüsusən də əksər məzhəblər və onların üzvləri Hz.Əlidə cəmləşmişdir. Təsəvvüf ədəbiyyatında ənənə halını almış

Həzrət Əli və onun xüsusiyyətləri ilə məşğul olmaq bəzən onu ilahiliyə qədər yüksəltmişdir.

Bu şeirdə klassik Şərq şairlərinin adları təsadüfən çəkilməyib. Bu, onların da Hz.Əli haqqında dedikləri tərifləri diqqətə çatdırmaq üçündür. Şair demək istəyir ki, o, "Şahi-Mərdanı" elə-belə tərif etmir, ondakı simsiz-pərdəsiz Eşq sazını ona gör kim verib. Yeri gəlmişkən, adları çəkilən klassik şairlərimizin Hz.Əli haqqında dediklərini xatırlayaq:

Ş.İ.Xətai "Dəhnamə"nin "Dər mənqəbəti-şahi-mərdan Əli" bölümündə Adəm əleyhissəlamla Hz.Əlini müqayisə edir: *"Həm səndə bulundu ismi-əzəm, Həm səndə göründü ruhi-Adəm. Tiğində yazıldı sətri-lövlak Lövlak ləma xələqtul əflak."* Sufilər İsmi-əzəmin (əsmaül hüsna) ancaq Allaha aid, peyğəmbərlərə agah olduğunu deyirlər. Ş.İ.Xətai (yəqin ki, şiəlik görüşləri səbəbilə) o adı Həzrət Əliyə də şamil edir. Bir hədisə əsasən, Allah-Təala Məhəmməd peyğəmbərə meracda Cəbrail vasitəsilə deyir: *"Əgər sən olmasaydın, mən fələkləri yaratmazdım"*. Xətai bu kəlamın Hz.Əlinin qılıncında yazıldığını qeyd edir və bununla bir növ həmin sözlərin imama aid olduğunu da ifadə etmiş olur.
Xətai yenə başqa bir şeirində Hz.Əliyə xitabən *"Həm səndə göründü ruhi-Adəm." –* deyir, M.Füzuli bu motivə başqa tərəfdən yanaşır. Hz. Əlinin axirətdə Adəmlə birgə olmağına, cənnəti – Kövsərdə Adəmi qonaq qəbul etdiyinə işarə edir: *"Kövsəri-cənnət onun hökmündədir, ol vəchilə, Cümlə nəslindən həmin Adəm ona mehman olur."* Bu beytdə məhşər günü Hz.Əlinin Tanrıdan bəzi insanlara da şəfaət diləyəcəyi fikri də öz əksini tapır.
İ.Nəsimi şerində də tez-tez Hz.Əlinin *"Özünü Tanıyan tanrısını tanıyar."* kəlamına rəst gəlirik.
Ə.Firdovsi məhşur "Şahnamə" əsərində dəfələrlə imam Əlini xatırlayır. *"Kimin ki, Əli ilə düşmənliyi var, Hər iki dünyada*

*olacaqdır xar. Mən kiməm? Nəbinin kiçik bir qulu, Yolumdur hər zaman Əlinin yolu."*

İslam dini inancı Aşıq Ələsgər yaradıcılığının böyük bir hissəsini təşkil edir, – desək, səhv etmərik. Amma bununla yanaşı, elm-ifran körpüsündən keçən, sözün və sazın vəhdətilə inşa edilən şeirlərində sufi mətləblərindən də söz açılır. Bəlkə də Aşıq Ələsgər şeirinin məhz musiqi ilə vəhdətdə olması, sufilərin inanc və vəcdi birləşdirən musiqi anlayışları ilə üst-üstə düşməsindən irəli gəlir ki, bu da İlahi eşqi dərin bir sevgi və şövqlə yazdığı ölməz əsərlərləri ilə təkcə Azərbaycana deyil, bütün türk-islam dünyasına bəxş etmişdir. Əsrlər boyu ağızdan-ağıza, qəlbdən-qəlbə keçən bu əsərlər indi də eyni zövqlə, canlılıqla ifa olunur.

Klassik xalq şeirini rövnəqləndirən şairin "Bax, bax" rədifli dildönməz gəraylısı Hz.Əlinin şəhadətinə yazılan ağıdır.

**Əxi, biya, biya, bequ,**
**Bequ, biqof, ağa, bax, bax.**
**Həyyi, həqqü hakim sənsən,**
**Həyyə bax, bu bağa bax, bax.**
**Gözüm sağı, sübh ayağı**
**Geyək ağı, gəzək bağı.**
**Hamı sevib bu sayağı,**
**Qaymağa, həm yağa bax, bax.**
**Əziz ayə, müəmmayə,**
**Gərək sayə bu məvayə.**
**Səbəb sənsən bu qovğayə,**
**Böyük Ağa, sağa bax, bax.**

Şeirin birinci bəndində işlənən "əxi" və ərəb sözlərini açsaq, şairin nə demək istədiyi anlaşılır. Əxi – XIII əsrdə Hacı Bektaşi Vəli tərəfindən qurulan türk-islam təşkilatının üzvlərinin bir-birinə müraciətidir – qardaş (əqidə qardaşlığı) anlamına gəlir.

Qardaşlar, gəlin, deyin ki, Həyyi (diri olanı – Allahı) həqqü hakim – həqq olanı hakim bilən, yəni Allahı tanıyan sənsən. * Bu arada qeyd edək ki, "biqof" sözünün doğru yazılışı "biqoft"dur. (tərcüməsi: demək). Həyyə bax – qalx, bax. (Əlinin ucalığına işarə edir), bu bağa bax, (bağ sözü burada böyüklüyü ifadə edir).

İkinci bəndın izahı: Ey sağ gözüm, sübh çağı (dan üzü, namaz vaxtı) geyək ağı (kəfəni), gəzək bağı (bağ – burada: cənnət) Hamı (burada: şəhidlərin hamısı) Allahı bu sayaq sevib, qaymaq, yağ yeyərcəsinə (xoşluqla, rahatlıqla) Allah yolunda can veriblər. Bu bənddə şair sübh namazında Hz.Əlinin qılınclandığını – şəhadətə yetirildiyini vurğulayır.

Üçüncü bəndin izahı: "Əziz ayə, müəmmayə" deyərkən, şair bəzi Quran təfsirçilərinə və hədislərə görə bir neçə ayənin, o cümlədən, Nəcm surəsinin (53) 14-cu "*(Yeddinci göydəki) Sidrətül-müntəhanın yanında.*"ayəsi 15-ci *(Mələklər, şəhidlər və müttəqilər məskəni olan) Mə'va cənnəti onun yanındadır.* ayəsinin və "Maidə" (5) surəsinin 3-cü ayəsinin Həzrət Əli ilə əlaqədar nazil olduğuna diqqət çəkir. Deyir ki, gəlin, biz də bu səsə – məlumata, bu guşəyə kölgə salaq (qoruyaq, inanaq). Bu səsin (xəbərin) səbəbi sənsən (Əli sənə inandı), Böyuk ağa (Məhəmməd peyğəmbər (s)) Əli sənin sağındadır (cənnətdə Mə'va bağında).
Tarixən türk toplumlarında hörmət ifadəsi olaraq, xalqa yol göstərən təcrübəli, bilikli şəxslərə, irfan sahiblərinə, ariflərə Dədə titulu verilib. Aşıq Ələsgərə "Dədə Ələsgər" deyə xitab olunması onun İslam dini ilə yanaşı, həm də Mövləvi və Bəktaşi təriqətlərinin təlim-tərbiyəsini örnək almasının, o kultun ənənəsini davam etdirməsinin göstəricisidir. Dədə Ələsgərin bu nizamı saxladığı qüdrətli sənətkarın bir çox şeirlərindən,

eləcə də özündən sonrakı ustad aşıqların onun haqqında söylədikləri rəvayət və dastanlardan bəlli olur.

**Adım Ələsgərdi, əslim Göyçəli,**
**Ələst aləmində demişəm "bəli!".**
**Həm aşiqəm, həm dərvişəm, həm dəli,**
**Canım gözəllərin yol qurbanıdı.**

Burada üçüncü misradakı "aşiq", "dərviş", "dəli" sözlərinin ardınca ifadə olunan "gözəllər" sözünün qadınlara aid olmasını düşünmək əlbəttə ki, absurd olar. Şairin bu ifadəsi onun Dədələrin – "gözəl əxlaqlı, nur üzlü, pak qəlbli, haqq-ədalət əməlli, şərəfləndirilmiş mübarək adamlar"ın yoluna can qoymasına, o yolun davamçısı olmasına işarədir.

Bundan başqa Ələvilər və Qızılbaşlar ruhanilərinə Dədə deyirlər. Ələvilər (şiələr) ümumiyyətlə, babalarının Hz. Əlinin nəslindən olduğunu qəbul edirlər. Dədələrin Ələvilərin və Qızılbaşların dini həyatında çox mühüm funksiyası vardır. Onlar dini, şəriəti təbliğ etmək üçün kənd-kənd, oba-oba gəzir, dini ayinləri icra edir, mərsiyələr və dualar oxuyurlar.

Tədqiqatlardan görünür ki, Dədə Ələsgər də eyni minvalla el-oba arasında hər hansı bir müşkül işin çözülməsində məsləhətlər verir, əhali arasında yaranan ixtilafların həllində arbitr kimi çıxış edir, günahkar olanları İlahi ədalətdən, cəhənnəm əzabından xəbərdar edirdi. "Bax, bax!" rədifli ikinci şeiri bu fikri əsaslandırır:

**Şəriət oxuyan, təriqət bilən,**
**Haqlıq eyləyirsən, haqq dinə bax, bax!**
**Qalmayıb dünyada "mənəm" deyənlər,**
**Həzrət Süleymanın taxtına bax, bax!**

**Oxuduğun Quran hardadı, hanı?!**
**Hansı yola dəvət edir insanı?!**
**Salıbsan zindana gözəl bir canı,**
**İqbalına bax, bax, baxtına bax, bax!**

Dədə Ələsgərin yaradıcılığını ümumilikdə tədqiq etsək, görərik ki, bəzi şeirlərində indiyədək diqqət edilməyən kiçik anlaşılmazlıqlar da var. Məsələn, “Kimi” şeirinə nəzər salaq:

**Adı Tərlan, özü tərlan balası,**
**Cilvələnib tərlan tavarı kimi.**
**Üzün görən xəstə düşər müttəsil,**
**Turuncun novrəstə nubarı kimi.**
**…Bu gözəl Zeynəbin nışanasıdı,**
**Ləbləri qırxların peymanasıdı,**
**Dəhanı şahlığın xəzanasıdı,**
**Düzülüb dəndanı mirvari kimi.**
(Aşıq Ələsgər. Əsərləri. Bakı, “Şərq-Qərb”, 2004, 400 səh. s.58)

Göründüyü kimi, şeirdə Tərlan sözü böyük hərflə yazılıb, bu, xüsusi isim kimi sözün adam adı olmağını bildirir. Halbuki, şeirin davamı bu şeirin Tərlan adlı birinə ithafı olmadığını göstərir. Çünki tərlan – comərd, dağ qartalı, güclü, yüksək məqamlı, ucaboy və s. anlamlara gəlir ki, bu da Hz. Əlinin görkəmini, ləyaqətini ifadə edir. İkinci bənddəki “Zeynəbin nişanası” və “qırxların peymanası” (bu barədə sonra) bunu təsdiq edir. Yəni şeirlərdə bir hərfin yanlış yazılması belə Aşıq Ələsgər şeirinin yanlış anlaşılmasına gətirib çıxarır ki, bu da aparılan və gələcəkdə aparılacaq tədqiqatlarda öz nəticəsini göstərə bilər.

Xatırlamaq yerinə düşər ki, Hz. Əli İslamın ümumi çərçivəsində hansı məzhəbdən olmasından asılı olmayaraq, bir çox şair və

aşıqlar tərəfindən imanlı və mübariz bir insan kimi işlənmişdir. Bu həqiqəti bir daha təsdiq edir ki, ədəbiyyat hər dövrdə ənənəvi inanclardan, onlar haqqında yaranan əsatirlərdən bədii məqsədlərlə istifadə edərək inkişaf etmişdir. Aşıq Ələsgər də poeziyasında həm dərin mənalar, maraqlı mülahizələr yaratmış, şair bir sıra dini-fəlsəfi fikirləri əks etdirmiş, özündən əvvəlkilərin dini baxışlarına toxunmuş, həm də poetik fikrin yüksək bədiiliklə tərənnüm olunmasına nail olmuşdur.

Dinə, təbiətə, vətənə, insana, Allaha məhəbbət hisslərini bir vəhdətdə aşılayan, doğma dilimizin saflığının hüdudsuz ifadə imkanlarını öz yaradıcılığında cəmləşdirən, milli poeziyamızı zənginləşdirən Dədə Ələsgəri bir başqa tərəfdən də araşdırmağa ehtiyac vardır. Əlbəttə ki, bir məqalədə geniş və hərtərəfli tədqiqat mümkün deyil, amma bir şeirinin – "Haraya qərəz" cığalı təcnisinin fonunda ustadın dünyabaxışına yeni rakrusdan boylanmaq olar.

**Qırxlar məclisində dedim "bəlini",**
**Sərdar gördüm Şahimərdan Əlini.**
**…Ələsgər, daməndən üzmə əlini,**
**Çəksələr nizaya haraya qərəz.**

Şeirdən göründüyü kimi, Aşıq Ələsgər "vergi"sini "Qırxlar məclisi"də qəbul edib. "Qırxlar məclisi" hansı anlama gəlir? Təsəvvüf alimlərinə görə Haqq Aşıqlarını "vergi"dən əvvəl bu hadisəyə hazırlayan bəzi səbəblər var. Yuxarıda da qeyd etdiyimiz kimi, şəyirdlikdən, mühitdən, mənəvi sıxıntıdan və qəfil depressiyadan sonra yuxu görülür və "badə içirilir." Bu "vergi" bir pir, üçlər, beşlər, yeddilər, qırxlar və ya Hz.Əli, Hacı Bektaş Vəli kimi ruhanilər tərəfindən verilir. Bəs "üçlər, beşlər, yeddilər, qırxlar" kimdir? Təsəvvüf alimlərinin izahlarına əsaslanaraq qısaca izah edək:

Üçlər – Allah, Məhəmməd peyğəmbər, Həzrət Əli;

Beşlər – Məhəmməd peyğəmbər, Həzrət Əli, Həzrət Fatimə, Həzrət Hüseyn, Həzrət Həsən;

Yeddilər – Məhəmməd peyğəmbər, Hz. Xədicə-Kübra, Həzrət Əli, Həzrət Fatimə, Həzrət Hüseyn, Həzrət Həsən; Salman Farisi (Pak)

Mənbələrə əsasən, yeddilər ən önəmlisidir, çünki yeddilər olmasa qırxlar da olmazdı. Yeddilər dünyaya aid olan dörd, insana aid olan üçdən meydana gəlmişdir. Dörd – od, yel, su, torpaq və üç – can, canan və uşaqdır. Burada can kişi, canan qadın, uşaq gələcəkdir, bu isə soyun davamını, eyni zamanda, 12 imamı təmsil edir.

Qırxlar – Allahın mübarək ruh olaraq yaratdığı, bütün dövrlərdə yer üzündə var olan, adları heç vaxt heç yerdə açıqlanmayan 23-ü kişi, 17-si qadından ibarət dünyanın səmavi sahibləridir ki, onlar fərqli zamanlarda, fərqli surətlərdə yenidən gəlirlər. Təbii ki, bu inancın tam olaraq İslam dini ilə əlaqəsi yoxdur, sadəcə hədislərə və rəvayətlərə əsaslanır. Bir çox mənbələrdə isə bu inancın İslamdan əvvəl də var olması qeyd olunur. Xızır, İlyas, Nəbi və başqa isimlərlə adlandırılan bu kəslər dara düşənlərin köməyinə çatar, onların qəlbini sıxıntıdan qurtarıb paklayar və yüksək dərəcələrlə mükafatlandırmaqla yer üzündə haqq-ədalətin, xeyirxahlığın bərqərar olmasını təmin edərlər. Aşıq Ələsgər kimi əsil soydan gələn, duyğusal təbiətə malik, ruhunda şairlik olan insanlar bu mükafatlanmanı – “vergi”ni bir ehtiyac olaraq qəbul edərlər.

Bu ehtiyacı Aşıq Ələsgər şeirlərində də vurğulayır.

**Onun bu gəlməyi, gör, nəyə bənzər,**
**Nə xana, sultana, nə bəyə bənzər,**
**Misirdən gəlmiş bir köynəyə bənzər,**
**Kənanda Yaquba dərman gəlibdi.**

Şair bu "vergi"ni (və ya Hz. Əlinin onun həyatına "gəlişini") Yaqub peyğəmbərin tutulan gözlərinə Hz. Yusifin göndərdiyi köynəyin dərman olmasına bənzədir. Yəni, Aşıq Ələsgərin düşdüyü kədər quyusundan çıxmasına vasitə olur.

Yuxarıda qeyd edildiyi kimi, Aşıq Ələsgər irsi ənənəvi sovet ədəbiyyatşünaslığında tam araşdırılmadığına görə onun irfani şeirləri büsbütün nəzər-diqqətdən kənarda qalıb. Dədə Ələsgərin şair, aşıq obrazı uzun onilliklər boyu xalqa birtərəfli təqdim edilmişdir. Amma buna baxmayaraq, ustadın yaradıcılığının böyük bir qolunu təşkil edən eşq, sevgi, vəsf şeirləri bu gün də Azərbaycan xalqının dillər əzbəri və məhəbbət nəğməsidir. Aşığın irfani irsinin tədqiqi və izahı onun təsəvvüf ədəbiyyatına verdiyi böyük töhfələri, eləcə də indiyədək anlaşılmaz qalan bir çox mənəvi məqamları oxuculara aça bilər.

***İlkin mənbə:* /525.az/**

**Redaktor seçimi.**



Sərvanə DAĞTUMAS

## Çingiz Aytmatovun "Cəmilə" əsərində qadının romantik "xəyanəti".

**Giriş**. Qırğız yazıçısı sevilən yazar Çingiz Aytmatovun qələmə aldığı ən gözəl eşq hekayəsi "Cəmilə" əsərində sevginin, məhəbbətin, mərdliyin, dəyanətin gücü azyaşlı yeniyetmənin aləmində ilahiləşdirilir. Əsərin hər cümləsindən, sözlərindən paklıq damlayır, obrazların yaşadığı duyğular oxucunu vəcdə gətirir,əsərin ruhundan şəffaflıq axır, oxucunun, sanki gözlərini qamaşdırır. Əsər cavan, qoçaq oğlanın-Seyidin dilindən nəql edilir. Əsərdə yeganə təhkiyəçi odur. Bu, təsadüf deyil. Aytmatov Talas vadisində cərəyan edən Cəmilənin əhvalatının bilavasitə şahidi olmuş və həmin hadisələri bir neçə il sonra qələmə almışdır. Güman edirik ki, Seyid yazıçının proobrazıdır. Əslində əsər uşağın həyatından, onun gizli dünyasından, duyğularından, istəklərindən, uşaqlığının bir hissəsindən bəhs edir və bu eşq hekayəsinin yeganə canlı şahidi olur.




**Cəmilənin həbs olunmuş xəyalları.** Əsərin baş qadın qəhrəmanı Cəmilə çalışqan, zəhmətkeş, möhkəm, bacarıqlı, tündxasiyyət bir qırğız gəlini idi. Dağ aili Bəkayirdə ilxıçı qızı idi, atlara yaxşı bələd idi, evin yeganə övladı idi ,xarakterində kobudluq hiss olunurdu ,ailə üzvlərinə qarşı hörmətli, sözə qulaq asan, açıqsözlü, açıqfikirli, ürəyitəmiz bir ev gəlini idi ,lakin eyni

zamanda onda mütilik,itaətkarlıq qətiyyən hiss olunmurdu. Cəmilənin xarakteri ailə üzvlərini ,xüsusilə də qayınanasını açmasa da o narazılıq etmir, gəlinini çox sevirdi. Ailəsi onun xoşbəxtliyini, səadətini varlı xoşbəxt evə düşməyində görürdülər.  Aildə ən vacib qayda-qanun gəlinin öz xoşbəxtliyi naminə namusunu və vicdanını qoruya bilməsi idi. Cəmilə deyib-gülən, şən, zarafatcıl bir qız idi, özünə azadlıq vermişdi. Xarakterində diribaşlıq, dilli-dilavərlik daha çox nəzərə çarpırdı, cigitlərlə qəhqəhə çəkir, şıltaq hərəkətlər edirdi.
**Cəmilə-Sadıq "məhəbbəti".** Onların tanışlığı da müəmmalıdır: baharda cıdır zamanı Cəmilə ilxıçı Sadığı məğlub etmiş, Sadıq bu məğlubiyyətin heyfini Cəmiləni qaçırdaraq çıxmışdı . Sevərək evləndiklərini iddia edənlər də vardı. Hər halda ail əhli belə danışırdı. Əsəri gözdən keçirən zaman bu evliliyin əvvəldən sevgi əsasında qurulmadığı aydın duyulur. 4 aylıq birgə münasibətdən sonra Cəmilənin əri müharibənin başlanması ilə əlaqədar orduya çağrılmışdı və Cəmilə ərinin yalnız 3 ildi, yolunu gözlədiyi "məktubları" ilə təsəlli tapırdı.  Daniyarın kəndə gəlişi sanki əsl "müharibənin" başlanğıcı oldu. Cəmilənin qəlbində soyuq küləklər əsdirdi,  onun ruhunu tamamilə qoparıb apardı. Cəmilə hər kənd qadını kimi ağır işlər görürdü, ancaq bu,  həsrətlə ərindən gözlədiyi məktubun gəlməsi və adının axırda laqeyd şəkildə çəkilməsi qədər ağır ola bilməzdi.  Qadın elə bir varlıqdır ki hətta xəyanəti belə bağışlayar, fəqət soyuqluğu, yadlığı, sevgisizliyi bağışlamaz. Hər əzab-əziyyətə dözər, ərinin hər cəfasını çəkər, qəlbi qırılsa da dinməz, sevgi görməsə, sevgi gülləri qəlbində susuz qalsa, onu heç bir qüvvə əvvəlki halına qaytara bilməz, yenidən eşq toxumu artıq cücərməz.
**Sadıqın gecikmiş "məhəbbəti".**
Qadının və kişinin xoşbəxtliyi nədə idi? Cəmilə və Sadıq xoşbəxt idi mi? Cəmilə ailin cigitlərilə mehriban və səmimi davranırdı . Buna rəğmən onun qəlbində yığılıb qalmış sevgiyə əsl ehtiyac hissi vardı. Onlar xoşbəxt deyildilər və bu

xoşbəxtliyin olmamasına nə onların aralarındakı məsafə, nə də Cəmilənin böyüdüyü mühitin neqativ təsiri səbəb olmuşdu. Məsafələr uzaq olsa da dualarla, istəklərlə görüşən qəlblər var. Cəmilə ər yox, məhəbbət axtarırdı. Sadıqın məhəbbəti isə gecikmişdi, o yetəri qədər xanımına məhəbbət bəsləyə, qayğı göstərə bilmədi. Sevmək üçün bunu dillə demək lazım deyil, sevgini hiss etdirməlisən, o isə xanımına bunu yaşada bilmədi. Əsl xoşbəxtlik sevgini hiss etdirmək, öz həyat yoldaşına sevgini vermək, onun mənəvi ehtiyaclarını qarşılamaqdı. Cəmilə bu xoşbəxtlik məfhumunu düzgün dərk edərək, realist addım atdı və özünü Daniyara təslim etdi.

Cəmilənin xarakteri və ya səfil həyatına öyrəşməsi bu ayrılığa səbəb ola bilərdi mi? Cəmilə zarafatcıl, şıltaq, hətta ərköyün qız idi, o səadəti pulda, var-dövlətdə görmürdü, kənd əhlinin düşüncələrindən fərqli olaraq, reallıqla düşünmək lazım gəlsə, varlı ailənin üzvü olmaq, varlı ailədə övlad dünyaya gətirmək insana sevgi qazandırmır. "Sevgi ilə qarın doymur" deyirlər, amma Cəmilənin qəlbi ac idi, qəlbinin aclığı ona daha çox işgəncə verirdi, qarnı acqız üçün.

Cəmilə Sadıqı sevmirdisə, onun məktuba qarşı münasibəti niyə dəyişdi? Bəlkə də sevmək istəyirdi, lakin o bu sevginin qarşılığın görmədi. Ailin öz adət-ənənələri vardı, bunlardan biri də həyat yoldaşına yazılan məktubun olmaması idi. Düzdür, Sadıq onun adını axırda qeyd edirdi, lakin bu onun yoldaşına toxnunurdu, o ərindən daha çox qayğı, daha çox sevgi görmək istəyirdi, hər halda ərinin yolunu gözləyən bir qadının məktub almasını istənilən qadın arzulayar. Bizim fikrimizcə, ən azından o ,yoldaşına salam göndərmək yerinə "ondan muğayət olun, onu sizə tapşırıram" deməsi daha məqsədəuyğun olardı. Sadıq sevgi məktubu göndərə bilməzdi, buna ehtiyac da yox idi ,amma 3 ildən sonra qadınına qarşı belə saymazlıq

etməsi Cəmilənin hislərindən yan keçmədi, doğrudur, sevən heç nəyə baxmır, amma bu sevgi qarşılıqlı olmaq şərtilə. Cəmiləni daha çox qəzəbləndirən ərinin gecikmiş məktubu daha doğrusu, gecikmiş sevgisi idi, çünki hər şey üçün artıq Sadıq gecikmişdi və onun bu hərəkəti Cəmiləni ərindən qaçmağa ondan uzaqlaşmağa sövq etdi.

Sadiq Cəmiləni sevirdi mi? Sevirdisə də Cəmiləyə bunu hiss etdirmək lazım idi .Onun buna ehtiyacı vardı. Cəmilə Allaha və ərinə sadiq olmağa çalışırdı, ailəsinin də istədiyi bu idi, lakin Cəmilə bu həyatdan sıxıldı, Sadıqdan qəlbi qırıldı və o ,təsəllini Daniyarda tapmağa çalışdı. Hər şey bir insanı sevməklə başlayar. Bəlkə də o sevirdi, buna baxmayaraq qəlbi artıq qırılmışdı və Daniyarla getdi, onun yanında xoşbəxtliyini tapdı, ondan sevgi qayğı gördü və onunla yaşlanmağa qərar verdi.

Müharibə olmasaydı Cəmilənin taleyi dəyişərdi mi? Sevən heç vaxt tərk etməz, hər halda ərinin varlığı belə olsa ondan sevgi görməsə yenə gedərdi, ərinin sevgisini uzaqdan hiss etmək ona kifayət edərdi, o, ərinin yanında olmağını deyil, ona sevgisini verməyini istəyirdi. Yanında olduğunu hiss etdirmək yanında olmaqdan daha önəmlidir. Müharibənin bu ayrılığın səbəbkarı olması yalnız bir bəhanə ola bilər. İllərlə ərlərinin yollarını gözləyən namuslu, ismətli qadınlar var. Cəmilə yenə gedəcəkdi ,öz səadətinin arxasınca gedəcəkdi, o sanki bunu əlində fənər gözləyirdi, ömür boyu bu eşqi axtarırdı və axır ki o bu eşqinə qovuşdu. O ac da olsa ,susuz da olsa xoşbəxtliyini tapıbsa, artıq onun var-dövlətə zərrə qədər də ehtiyacı yoxdur. O təngə gəlmişdi ,qəlbindəki boşluq onun bütün varlığına hakim kəsilmişdi və o səfil həyata belə razı idi ,yetər ki yenicə çiçək açmış ülvi məhəbbəti, sevgilisi onun yanında olsun.

Cəmilə daha tez gedə bilərdi, amma…

Gedə bilərdi, lakin bəlkə də axtardığı uzun illər gözlədiyi şəxslə qarşılaşmamışdı, bəlkə də əri ilə aralarındakı mənəvi məsafə onların yenicə çiçək açmış münasibətinin bitməsinə solmasına gətirib çıxartdı. Cəmilənin fikrincə dünyada qadın qəlbini başa düşən kişilər yoxdur, kişilər sadəcə özlərini düşünürlər. Qadın kişilərdə yaxşı gələcək, kişilər isə qadınlarda yaxşı keçmiş axtarır. Görünür, Cəmilə Sadıqda yaxşı gələcək görə bilmədi. Onun laqeyd münasibəti Cəmilənin qəlbini qırdı ,sanki qisas almaq hissilə bu addımı atdı və Sadığı Daniyara dəyişdi. Belə desək, pulu sevgiyə dəyişdi.

**Fırtınalı eşq dastanı.** Daniyar əsərin əsas sujet xəttini təşkil edən obrazlardan biridir. O, eyni ildən idi ,yetimliyin və həyatın hər sərt üzünü görmüşdü. Bir müddət sonra qohumları tərəfindən unudulmuş, elə burda məskunlaşmağa başlamışdı. Haqqında söz-söhbət yayılan bu cavan oğlan tez bir zamanda da unudulmuşdu. Onun açıq-aşkar olmayan simasında sanki bir fırtına qopur, soyuq küləklər əsirdi. Daniyar deyəndə ağıla qapalı, ciddi, sərt, adamayovuşmaz, qaradinməz, qaraqabaq, hamıdan qaçan, azdanışan bir xarakter gəlirdi. Həmişə ail əhli ilə məsafəli idi, fikri adətən, dağınıq olurdu. Onun dalğın, kədərli, xəyalpərvər gözləri, bitkin, yorğun və qəmgin baxışları insanın gözü qarşısında canlanırdı. Üzdən sakit və fağır görsənirdi, yalnızlığı özünə sirdaş seçmişdi. Müharibə nəticəsində insanlıqdan, qəlbindən başqa hər şeyini itirmişdi. Sanki torpaq onu qəbul etmək istəmirdi və o nəfəs alırdı. Cəmilənin onu lağa qoyması, ona qarşı laqeyd davranması Daniyarı heç vaxt özündən çıxarmamışdı. O, bütün ilhamverici mahnıları Cəmilə üçün oxuyurdu, onun qəlbindəki ehtirası, vurğunluğu, istəklə, arzu ilə coşub-daşan, vəcdə gələn hislərini sanki Cəmilə ortaya çıxara bilmişdi. Cəmilənin quraqlığa çevrilən qəlbinə yeni toxumlar səpən də o idi. Daniyar yalnız bir adamın vurğunu deyildi, sanki qəlbində daha böyük hislər

baş qaldırmışdı, təbiətin ,dağların, torpağın, quşların ,bir sözlə həyatın vurğunu idi və bu duyğular onun zümzümə etdiyi mahnıda daha aydın özünü büruzə verirdi ,onu sanki bütün təbiət-çaylar ,yarpaqlar,dağlar-dərələr dinləyir və ifasından feyzab olurdu.
Daniyarın kisəni aparmaq cəsarəti gənc qızda hislər mi oyatdı? Cəmilə ilə qaynının qurduğu bu tələ uğursuz oldu və bu, Cəmiləyə şübhəsiz təsir göstərdi. Həmişə istehza dolu baxışları ilə Daniyarı təqib edən, onu ələ salan, öz şıltaqlığından yenə də vaz geçməyən Cəmilə belə bir hadisə ilə qarşılaşacağını təsəvvürünə belə gətirməzdi. Bu hadisədən sonra iztirab içində idi və vicdan əzabı çəkirdi. Onu ən çox incidən Daniyarın yaralı ayağı ilə o yükü daşıması yox, onun qəlbinin yaralı olması, Cəmiləyə zillənən yalvarış, mərhəmət, imdad dolu baxışları idi. Cəmilə hiss olunurdu ki, son vaxtlar artıq ondan çəkinirdi, cigitlərlə suda oynamaqdan belə utanır, Daniyarın kəskin, qəmli baxışlarını öz üzərində hiss edərək, geri addım atırdı. Daniyar sanki həm fərəh, həm də qüssə dolu baxışları ilə nəsə demək istəyirdi, görünür, o da səadətini gənc qızda görmüşdü. Onlar axtardıqları sevgini, xoşbəxtliyi bir-birlərində tapmışdılar. Cəmiləni artıq nə Sadığın məktubu, “sevgisi” ,nə də özü maraqlandırırdı . Bunun üçün artıq gec idi. Təbiət böyük bir eşqlə yaratdığını eyni təntənə ilə də məhv edər. Daniyar zahirən kasıb idi, lakin onun mənəviyyatı, zəngin eşqi, tükənməz sonsuz idi, bəzən insanlar həyatın köhnə qanunlarının amansızcasına pozulmasının əleyhinə idilər. Onlar Cəmilənin bu addımı ilə barışa bilmir, mental dəyərlərə zidd sayırdılar. Cəmilənin bu hərəkəti “romantik xəyanət” sayılır.

**Cəmilə stereotipləri aşa bildimi?** Cəmilənin mənəvi həyatı səfil idi, onun bu hərəkəti yolverilməz hesab oluna bilər, ancaq gənc qız çox qırıldı ,sevgi qarşılıqlı hörmət, qayğı, xoşbəxt

həyat əsasında yaranır, onun qarşılığın görməsən, artıq sevginə, hörmətinə layiq olmayan insanla eyni dam altında yaşamağa ,bir evdə yaşlanmağa dəyməz. Cəmilə bunları dərk edirdi və artıq o, özünə haqq qazandıraraq, xoşbəxtliyinin arxasınca getdi. Sadıq ilk başda onun xəbərsiz gedişini bayağı qarşılasa da sonradan düşüncələrinin yalnış olduğunu başa düşdü.
Daniyar Cəmilə-Sadıq münasibətlərinin bitməsində rol oynadı mı? Cəmilənin yaşı az olsa da ağlı başında, düşüncəli bir qız idi, onu heç kim bu hərəkəti eləməyə vadar edə bilməzdi. O artıq qərarını vermişdi. Sadığın ona sonradan məktub göndərməsinin bir önəmi qalmamışdı. Ona daha o məktublar lazım deyildi.

**Sevgi üçbucağı.** Daniyar Cəmiləni sevirdi ,bu onun gizli, inadkar, yalvarış dolu baxışlarından hiss olunurdu, bəlkə də düşünürdü ki, o, əlçatmazdır və heç vaxt Cəmilə onun olmayacaq, amma özü də bilmədən Cəmilənin yatmış ruhunu oyatdı. Daniyar qəlbən vurğun adam idi. Onun məhəbbəti müqəddəs, böyük məhəbbət idi. Bu sevgini o, mahnılarında gizli saxlamış, onunla yaşamışdı. Laqeyd, dağınıq adam bu nəğmələri ürəkdən vurğunluqla səsləndirə bilməzdi. Müharibədən yaralı qayıtmış bu adam insanlardan uzaq dururdu. Əsərdə görünür, gestap Sovet rejiminə qarşı da kəskin etiraz motivləri var. Müharibənin hakim kəsilməsi və dəhşəti Daniyarın geyimindən, fiziki qüsurundan-axsamasından, soyuq davranışından, susqunluğundan hiss olunurdu, lakin ən yaxşı məsləhətçi zamandır. Zaman keçdikcə insan yaşadıqları məşəqqətləri, ağrıları, acıları, yaralarını unudur, bəzən də yaşadığı travmanın, əzabın qarşısında aciz qalır və təslim olur. Bəlkə də buna görə insan öz duyğularında gizlənir, qaranlıq tərəflərini göstərmir, heç kəs bu insanı anlamır, insan bəlkə də onu başa

düşən birinin olmamasını bildiyi üçün öz daxili aləminə çəkilir və ətraf aləmdən təcrid olur.

**Qadın nə istəyir?** Ailə həyatı qayğıdır, özü üçün deyil də başqası üçün yaşamaqdır, həyat da bu zaman mənalı keçir, özü üçün yaşayanda isə ölüm qorxusu onu bütün ağuşuna alır. Ailə qurmaq asandır, lakin onu əldə saxlamaq, dağıtmamaq, qorumaq çətindir. Ailə qala kimidir, ora girmək istəyən çoxdur, mühafizə güclü olsa, o qalanı heç kəs dağıda, ora girə bilməz. İnsan ilk növbədə qalanı özü mühafizə etməlidir, özü dağıtmamalıdır, yalanı, xəyanəti, güvənsizliyi, sevgisizliyi ora buraxmamalıdır, yoxsa qala tez uçular. Cəmilə də mühafizə edə bilmədi, çünki qılıncı yox idi, qorumağa heç nə yox idi. Sadıq orduda mübarizə apardı, öz qalasını mühafizə edə bilmədi, nə özü qılınc oldu, nə də Cəmiləyə qılınc Verdi. Özü buna şərait yaratdı, öz cəsarətsizliyinin, qətiyyətsizliyinin qurbanı oldu.  İnsan Allah üçün, qəlb üçün yaşamalıdır. Qəlbi yaradıb ki, insan sevsin, sevgisiz insan heçnədir, sevgi olmayanda, onun yerini nifrət alır. İnsan ilk öncə Allahını, sonra isə bəndələrini sevməlidir. Fırtına zamanı vəcdə gələn okean, göydə guruldayan şimşək kimi ifadələr əsərlərdə estetik ovqat yaradır. İnsan bəzən güllü-çiçəkli, bağlı-bağatlı çəmənliyi seyr edər, bəzən uçurumdan dərənin dibinə baxar, elə olur ki, uçurumun dibindəki gözəlliyə aldanıb özünü onun qucağına atır, həmin gözəllik də onun ölümünə bais olur. Birinci mənzərə sevinc hissidir, ikinci isə qorxu. Digəri isə xoşbəxtliyin görünməyən dəhşətli tərəfi. İnsan uçurumdan uzaqlaşmaq istədikcə, ona yaxınlaşır, əldə edə bilmədiyi şeylərin arxasınca qaçır, ona doğru can atır, daim həsrətini çəkir. Uçurum adlandırdığımız məfhum əslində insan qəlbinin dərinlikləridir, hər bir insanın qəlbi onun uçurumudur. İnsan, xüsusilə də qadınlar daim hislərinin, duyğularının əsiridir.  Qəlbdə əgər nifrət məskən salıbsa, məhəbbət məğlub olur, insan hər kəsdən və hər şeydən qaçır, tənhalaşır, sonda bu həyatdan üz döndərir.

**Gəlin-qayınana münasibətləri.** Müasir dövr üçün bu iki ailə qadının münasibətləri ziddiyyətli olsa da, əsərdə bu halın tam əksilə qarşılaşırıq. Bunun da səbəbi maraqlıdır. Görəsən, Cəmilə kimi gəlinlərin sayı azalıb, yoxsa analar belə gəlini qəbul etmək istəmirlər, ya da belə qayınanalar azlıq təşkil edir, bəlkə də cəmiyyət qəbul etmir…Kiçik ana adlandırılan qəhrəman ana obrazı öz müsbət keyfiyyətlərilə yadda qalır: xeyirxah, üzüyola, fağır, çalışqan, zəhmətkeş, hörmətli, insaflı, ağıllı, təcrübəli, mehriban ev sahibəsi… Ananın sərtliyi və öcüşkənliyi yox idi, lakin onun ağır, tünd, adət-ənənəyə bağlı xasiyyəti də vardı. Gəlini Cəmiləni çox sevirdi, onun şıltaq hərəkətlərinə fikir vermir, yaşa dolandan sonra düzələcəyinə ümid edirdi,  onun qəlbinin gizli hislərindən hamı xəbərsiz idi, ona nə qayınana, nə zəngin ev, şərait, nə də quruca bir ər lazım idi. Ona ən çox təsir edən gəlininin evdən vaxtsız gedişi oldu.
Qayınanasının və ya digər ailə üzvlərinin ciddi münasibəti Cəmilə üçün nəyisə dəyişərdi mi? Əgər qayınanası çox sərt olsa idi, deyərdilər ki, qayınanadan bezib getdi, amma qayınanası ən azından onu yoluna qoysa, gəlinə gəlin olduğun hiss elətdirsə idi,  gəlin özü ilə hesablaşardı.  Qayınana isə istəyirdi ki Cəmilə özü bunu etsin. “Gəlin düşdüyü ocaqda gəlindir” deyiblər. O gəlin ki özünü necə aparmaq qaydasını bilmədi, bunun sonu olmaz. Ən azından o bunu dərk etməli idi, davranışlarını nizama salmalı idi, qayınanası nə qədər ona sərt davransa da onun özünün ağlı başında olmalıdır, özü gəlin olduğun dərk etməlidir.

**Geri dönüş oldumu?** Sevginin təməlini “Cəmilə” ilə qoyan məhz Aytmatov oldu. Əsərin eşq qəhrəmanlarının sonrakı taleyi oxuculara məlum olmasa da Aytmatov qeyd edir ki, onlar artıq çox xoşbəxtdirlər və layiq olduqları məhəbbətlə yaşayırlar. Əlbəttə güman olunur ki, Cəmilə həyatın anlamını dərk etmiş

və arzularına çatmışdır, geri dönüşün olması mümkün deyildi. Onu kimin, nəyin xoşbəxt edəcəyini, kilidlənmiş ürəyinin qıfılını kimdə və harada  olduğunu tapdı, küt beyinli, daşlaşmış fikirlərin əsiri olan, düşünmək bacarığını tamamilə itirmiş insanların sözlərini önəmsəmədi. O, camaatın kasıb, fiziki qüsurlu Daniyarı tənqid etmələrinin belə fərqində deyildi. Heç kəs Daniyarın daxili zənginliyindən agah deyildi. Maraqlıdır ki, belə bir ciddi ail mühitində Cəmilənin cigitlərlə zarafatyana münasibəti, özünü bəzən yaşına uyğun olmayan tərzdə aparması deyil də öz səadətinin arxasınca qaçması daha çox ailin zoruna gedir, daha çox istehza və nifrətlə qarşılanırdı. Cəmilənin günahı nə idi? Saf, pak hisləri qəlbində yaşatması ? Buna görə mi onu məzəmmət edirdilər? Cəsarətilə yaşaya bilməyən əsarətilə ölər. Yazıçı üçün ən böyük mövzu insandır və o, bəşər övladının düşüncələrini, istəklərini, xoşbəxtliyini, sevincini səadətini hər şeydən üstün hesab edirdi. Aytmatov insanları təqsirləndirmir, mühakimə etmirdi. Cəmiyyət basqısını, mühafizəkarlığını, şablon düşüncələrini sübut etməyə çalışır və insandan qat-qat aşağı səviyyədə olduğunu gözlərinin önünə sərir. Cəmilə doğurdan da heyrət doğurdu, güc-qüvvə inam verdi, cəsarət yaratdı, məqsədə çatmağın, istəklərə qovuşmağın, bu qaranlıq zindandan xilas olmağın heç vaxt gec olmadığını, arzuladığımız həyatı yaşamaq üçün kimsənin əngəl yarada bilməyəcəyini isbat etdi. İnsanların bir qismi həyatına sarılan qırılmaz zəncirlərdən qurtulub xoşbəxtliyə qovuşacağı günün xəyallarını qurur. “Başqaları nə deyər” düşüncəsi, mühakiməsi, tənəsi, ucuz və bulanıq fikirləri ilə yaşayan zaman isə artıq bütün arzularını, istəklərini basdırır, xəyallarını öldürür, puç edir, öz cəsarətini itirir və bu itkinin qurbanı olur. Bu düşüncələrdən, qaranlıq fikirlərdən azad olan, öz arzu və məqsədlərinin arxasınca gedən Cəmilə kimilərinin əzmkarlığı, mübarizəsi Daniyar kimilərinin zəngin, mənəviyyatlı olmaları, inam və ümidlərinin aşıb-daşması, nəhayət bu iki gəncin istəklərinin qovuşması insanları motivasiya edir,

ruhlandırır, azad quş kimi qanadlandırır . Məsafələr belə uzaq olsa, dualarla görüşən qəlblər vardır.

**Seyidin mükəmməl rəsm əsəri.** Yazıçı bu sevgi hekayəsini Seyidin dilindən verir. Cəmiləni sevən onu qısqanan ona sahiblənən yeniyetmə qaynı burada diqqət çəkir. Bu obraz yazıçının prototipidir. O, daim doğma olmayan qardaşı arvadını qorumağa çalışır, hətta buna gücü yetməyəndə acıqlanırdı. Bəlkə də o, eyni qandan olan doğma qardaşı olsa idi, belə etməzdi. Cəmilə qaynının ona qarşı bildirdiyi iradını önəmsəmir, hətta inciyirdi. Hər halda Cəmilə özü nəyi necə edə biləcəyi bir qadın olduğunu düşünürdü və ona görə də azyaşlı qaynının etdiyi hərəkətlərinə acığı gəlir, çox vaxt ironiya ilə gülür, bəzən gülməkdən də özünü güclə saxlayırdı. Əsərdə diqqət çəkən məqamlardan biri də bu sirli məhəbbət başlayan andan etibarən adi karandaşla bunları təsvir edən Seyidin rəssamlığıdır. O, gələcəkdə rəssam olur və şahidi olduğu bu sevgini boyalarla təsvir edir, sanki o şəkilə baxanda Cəmilə ilə Daniyarın fizioqnomikası deyil, daxili aləmi daxili dünyası açıq-aşkar görünür. O, onların qısa zamanda şahidi olduğu xoşbəxtliyini rəsm əsərilə əbədiləşdirir və münasibətlərini dəstəkləyir.

**Əsərin ideyası.** Pozulması yalnış qayda-qanunun hər şeydən yüksəkdə duran məhəbbətdən aşağı olması. Yazıçının da əsl qələbəsi bu idi- sevgini hər şeyin fövqündə vermək və müqəddəsləşdirmək.

Əsəri oxuyanda sanki film izləyirsən və hər şey sənin gözlərinin qarşısında canlanır. Bu cür əsərlər ekranda yayımlanaraq, daha çox uğur qazanır. Onlardan biri də “Cəmilə”dir. Əsərin sujet xətti əsasında film də çəkilmişdir. Müəllif öz yurdunun-Talas vadisinin tarixinə, mədəniyyətinə,kültürünə, adət-ənənələrinə toxunur, vadinin dağları, yaylaqları, çayları aydın şəkildə təsvir olunur. Hətta

bəzən özünü bir obraz kimi də görürsən. Əsərdə Aytmatov donmuş cəmiyyəti donmuş sular kimi “əritməyə” çalışır. Müharibənin simvolikası əsərdə Daniyardır. Onun aldığı fiziki və mənəvi travmalar, zərbələr və çəkdiyi iztirablar bunun bariz nümunəsidir. Qəlbi də özü də yaralı olan Daniyarı da bu sevgi dəyişir. Hər kəsə qarşı məsafəli olsa da Cəmilə ilə arasında körpü qurur. İroniya ilə başlanır və eşqlə davam edir. Onun bədbəxt olacağını düşünən camaat onun əsl xoşbəxtliyindən xəbərsiz idilər. Onlar isə heç nəyə baxmadılar və əl-ələ verərək, hər şeyi arxada qoyub getdilər. Onların xoşbəxt olacaqlarından Seyid əmin idi, ona görə də o nə qınıyır, nə də nigaran qalırdı. Aytmatov üçün insanın uğuru, həyatda əldə etdiyi qazanc insanın xoşbəxtliyidir, onun gerçəkləşən arzuları, xəyallarıdır. Cəmilə də sözün əsl mənasında təəccübləndirir, cəsarət verir, güc-qüvvə yaradır, boyunduruqdan çıxmağın heç vaxt gec olmadığını, yaşamaq istədiyin həyatı yaşamaq üçün heç kəsin maneə törədə bilməyəcəyini sübut edir, gələcək nəsillərə də bariz nümunə olur. Onu qınayan saxta, cahil insanlara bu gedişi ilə böyük iz qoyan “bomba” atır.

Təsadüf Allahın gizli təxəllüsüdür. Bəli, qismət də, tale də, alın yazısı da, qəza da, qədər də Allahın müxtəlif adlarıdır. Allah hər kəsə bir fürsət verir və insanın onu dəyərləndirməyini istəyir. Bəzən biz qarşılaşdığımız fürsətləri dəyərləndirir, imtahandan üzüağ çıxırıq, bəzən də Onun bizim üçün məsləhət bildiyi təsadüflərə, qismətə razı olur, mütiliklə boyun əyirik, elə olur ki, təəssüflənirik, elə də olur ki, sevinirik. Tale də sözün əsl mənasında Cəmilənin üzünə gülür və stansiyaya taxıl daşıyaraq, Daniyarla tanış olur. Daniyarın danışığından artıq onun həyat, sevgi –hər şey haqqında fərqli düşüncələri sahib olmasının şahidi oluruq və gənc oğlan düşüncələrini çox vaxt dilə gətirmir, xüsusilə də fəlakətli müharibə haqda

danışmağa ürək eləmir, yalnız qəlbinin qapılarının Cəmiləyə açır.



Çingiz Aytmatovun "Cəmilə" əsəri sırf reallığına görə fərqlənir və mənəvi kolliziyaların insan həyatında rolunu göstərmişdir, qadın adət-ənənəyə bağlı olsa da öz fikirlərini ortaya qoymaqdan da çəkinmir, sərt rejimə qarşı çıxır. Cəmilənin yaşadığı mühitdə qanun-qayda hökm sürür və yaşayış da sıxıcıdır, gənc qız da bu mühitdən qopmaq, qurtulmaq istəyir, yəni əslində keçmişdən. Ona sevgi anlayışı yaddır, ideal sevgi axtarır. Yazıçı qadının fərdi xüsusiyyətlərini, etnik-milli psixologiyasını rahat şəkildə ortaya qoyur. Aytmatov yeni tipli

insan obrazının formalaşması və təşəkkülündə böyük rol oynamışdır. İlk olaraq, əsərlərində sovet rejiminə qarşı çıxmış, müharibənin törətdiyi fəsadları açıq-aydın təsvir edir. O, obrazların mənəvi aləminin zənginliyini, rəngarəngliyini təbii şəkildə oxucuya təqdim edir, əsərlərində, kredosunda bəşəriliklə millilik vəhdət təşkil edir, harmoniya üzrə tarazlaşır, qəhrəmanların simasında müsbət, dərin insani keyfiyyətlər təzahür edir.



**Gülbəniz ABBASOVA**

**ANA URƏYİNİN SƏRHƏDDİ YOXDUR…**

Ana mövzusu çox dərin və incə bir mövzudur.İlk nümunələri çox qədimlərə gedib çıxan şifahi xalq ədəbiyyatımızın müxtəlif janr-bayatılarda, ağılarda,nəğmələrdə və s. rast gəlirik.

*Əziziyəm mərd ana,*
*Sözunu dedim mərdana*
*Qarabağa dönməsəm*
*Oğul deməz mərd ana!*

Azərbaycanın bir parçası olan Qarabağın anaları neçə nəsillər böyütmüş, Azərbaycana Şükufə Mirzəyeva,Sara Qədimova, Mirvari Dilbazi və.s. kimi görkəmli səxsiyyətlər bəxş etmişdir.
Tarixən Şah Qacardan başlayaraq işğalşçılar Qarabağ analarına çox ağrı-acı yaşadıblar. “Xarı bülbül” əfsanəsi ilə yaranan fikirlər Qarabağ analarının taleyinə bir misaldır.Qırxqız dağı kimi adı tarixə düşən toponimlərimiz ipək kimi həlim təbiətli analarımıza olan hörmətdən yaranmışdır. Əsrlər boyu Qarabağ anaları ürəklərində bir nisgil, bir ağrı daşımışvə bacardıqları qədər Azərbaycanın harayına səs vermişlər.
Qarabağın dilbər guşəsi olan Gülablının anaları Qızılqaya kimi uca, Nur bulağı kimi təmiz,pakdırlar.Gülablı qadınları bir zamanlar xoşbəxt idilər.Qarabağ müharibəsi bu xoşbəxtliyi onların əlindən aldı.Qarabağ anaları haqqında çəkilən filmlərdə onların Vətən həsrətini görmək olur.

Bu gün haqqında qələmə aldıqım Ana gözəl Qarabağın dilbər güşəsi olan Gülablıda yaşamış Səyyarə anadır. Qarabağ aşıqı Xaspolad Coşqunun ömür-gun yoldaşı Səyyarə xanım Mirzəliyevadır. Uzun sürən Qarabağ müharibəsi və ondan sonrakı 30 illik ayrılıq dövründə vaxtaşırı müsahibim olan bu ana Qarabağ analarının bir timsalıdır. Təbiətən Səyyarə ana kövrək bir insan olub. Kəsdiyi çörəyin,daddığı duzun qədir-qiymətini həmişə uca tutardı.Uzun illərdən bəri tanıdığım Səyyarə ana uşaqdan böyüyə kimi hamının hörmətini qazanmışdı.Ürəyində Allah xofu olan,mərhəmətli,elin xeyir-şərinə yarayan gözəl bir insan idi Bu qadın! Bu ana mənim qəlbimdə alicənablığı, xeyirxahlığı ilə ağbirçək adına da hörmət, izzət gətirib.O saflıq, insanlıq nümunəsi kimi özünə əbədi yer tapıb.

Əgər bir vaxtlar Gülablının yaraşığı gül-çiçək,bülbüllər olubsa, həyatımızın yaraşığı isə analardır.Anası olmayan ev suyu sovulmuş dəyirmana bənzəyir. Bütün başımıza gələnləri yoluna qoyan analardır,onların fəhmi-fərasətidir.Anaların əli ilə ömrümüz mənalanır.

Vaxtilə görkəmli ədibimiz Y.V.Çəmənzəminli yazırdı ki, XVIII əsrdə İbrahim xan Şuşada doğulan hər bir oğlan uşağına Abdal-Gülablı kəndindən dayə və süd anası tutmaq barədə fərman veribmiş.Bu fərmanın anlamı böyükdür. Belə ki, fərman oğlan uşaqlarının hünərli olmasında Qarabağ analarının südünün ecazkar gücündən xəbər verirdi.

Səyyarə ana eldə,obada tayı-bərabəri olmayan oğulların anası olmuşdur.O,Gülablı kəndinin ilk qadın ziyalılarından biri idi. Gülablıda doğulmuş və kənd idarəsində uzun müddət mühasib işləmişdi. Səyyarə ana elə kökdən böyümüşdü ki,bu kökdən qol budaq atanların hamısı Vətəninə,xalqına, el-obasına layiqincə xidmət göstərmişdilər.

Gülablı Qarabağın kiçik bir guşəsi idi.Özü gözəl, havası səfalı, insanları çox zəhmətkeş,mehriban idi. Hər yandan Qarabağ bülbüllərinin cəh-cəh səsi eşidilirdi.

1992-ci ilə qədər toy-büsat Gülablı kəndinin bəzəyi idi. Amma bu rahatlıq,şən həyat uzun sürmədi, sanki gözə gəldi.Toyların səsini güllə, mərmi səsləri əvəz etdi.Göz yaşları, ana-uşaq fəryadları bir-birinə qarışdı. Əzəldən Abdal-Gülablı camaatının qəlbində hörmət qanamış Nofəl Mirzəliyev Səyyarə ananın böyük oğlu idi. Müharibə

başlayan gündən etibarən kəndinin namərd ermənilər tərəfindən hücumlara məruz qalması Nofəl müəllimi çox narahat edirdi.O zaman ərazi müdafiə dəstələri yaradılması haqqında dövlətimiz qərar verəndə, kənddə uşaqdan-böyüyə hamı gözünü Nofəl müəllimə dikmişdi. Nofəl müəllim kəndin sədri kimi bütün qeyrətli oğulları Vətənin müdafiəsinə qaldırdı. Kişi qeyrətli Səyyarə ana daim deyirdi ki,Vətən, torpaq qarşısında hamımızın borcu var.Ovladlarının hamısı Səyyarə ana üçün əziz idi. Ancaq, onun, Nofələ olan məhəbbəti sankı qəlbinin dərinliyə varmışdı.O, bu sevgini heç kimsəyə bəlli etmirdi.
1992-ci ilin sentyabrında kəndin üstünü qara buludlar aldı və kənd quduz ermənilər tərəfindən işğal olundu.O gündən bəri hər gün Nofəl müəllim Xındırıstanda yerləşən kənd idarəsində kəndin xilas olunması üçün əlindən gələni edir,bütün gününü idarədə keçirirdi.O, həmişə Səyyarə anaya deyirdi ki: – Anacan,evdə qalmağa mümkünat yoxdu,vəziyyət çox ağırdı.Səyyarə ana çox həyəcanlanır,canına qara fikirlər gəlirdi.
Günlərin birində Nofəl anasına mən bu gün mütləq getməliyəm dedi. Oğlunun qəfil sözlərindən Səyyarə ana yerindəcə quruyub qaldı. Sankı oğlu ilə son görüş olduğunu ana hiss edirdi. Nofəl müəllim doğmaları ilə vidalaşıb yola düşdü.Ölüm onu qarabaqara izləyərək Nəvaidə haqladı.Qəzaya uğramış maşın Nofəl müəllimə ağır xəsarət yetirmişdi.Onun son sözləri:Kəndimiz…..Ana!… oldu.
Ana el-obada tayı bərabəri olmayan oğlunu itirmişdi. Amma yenə də dözümlü idi Səyyarə ana! Oğul itgisi onun vüqarını sındırmadı,urəyi sızlasa belə özünü möhkəm tutmağa çalışdı kı,elinin anaları ona baxıb sinsiməsinlər.
Oğul həsrəti çəkdi illərlə ağbirçək ana!! Ürəyindən çox şeylər keçirdi Səyyarə ananın.Səyyarə ana oğlunun əzəmətli duruşunu, məğrur yerişini unuda bilmirdi. Bir zamanlar Ana,Vətən sözlərinə hay verən oğulların anası həsrətindən yanıb yaxılırdı. Kəndin gözəl günlərində Nofəl müəllim camaatın, xalqın xeyir-şərinə çox yarımışdır.O, öz torpağında yaxşı iz qoyub getmişdir. Bir sözlə insanpərvərliyi ilə şərəfli bir ömür yaşamışdır. Kəndin bütün adamları Səyyarə ananın,onun övladlarının xətrini çox isdəyirdilər. Həyatda bütün anaların böyüklüyü var.Qarabağın el ağbirçəyi Səyyarə ana isə tamam başqadır. O həmişə daim ucalıqda yaşayacaq. Xatirimdədir

“Xocalı faciəsi” zamanı Abdal Gülablıya 300 faciə qurbanı pənah gətirəndə Səyyarə ana hönkürtü ilə ağlamışdı.Ayaqıyalın,köməksiz vəziyyətdə sağ qalanlara Səyyarə ana sığınacaq,əyin-baş vermişdi.Onların çoxunun xərclərini öz üzərinə götürmüşdü.
O, nisan üzüyünü, sırğasını, başqa zinət şeylərini müdafiə fonduna vermişdi.Səyyarə ana sabaha ümidini heç zaman itirmirdi. Bilirdi ki,Azərbaycan xalqı öz torpağını heç vaxt yağı əlində qoymayacaq.
*Ağarıb saçların Səyyarə ana*
*Gümüş çələngitək düşür çiyninə*
*Nə edək taleyin tərəzisinə*
*Çox görüb,çox çekib,çox itirmisən.*
Son müsahibələrimizin birində Səyyarə ana hönkürərək ağladı.Mən yaxşı bilirdim ki,bu hönkürtü itirdiyimiz o gözəl cənnət torpaqlarımıza, şəhid oğullarımıza görə idi.
Onun bir arzusu var idi:torpağının azad olunması.2020-ci ilin noyabırında o, bu xoş xəbəri eşitdi.Ana hələ də dərin iztirab və həsrətlə TV-yə azad olunmuş kəndinə baxdı.Oğlunun yoxluğunu duysa belə,yenədə onun yolunu gözləyən ananın kədəri öz əksini tapmışdı.
2022-ci ilin fevralında ananın ölümü onu sevən doqmalarının,qohum- qonşularının ürəyini sızlatdı….
Əbədiyyət dünyasına qovuşdu Səyyarə ana .Uzun illər qəlbində oğul nisgili, Vətən həsrıtli Səyyarə ana əbədəyyətə qovuşdu Son mənzilə nəvələrinin çiynində getdi……. Ağdamın Quzanlı qəbristanlığında dəfn olundu. Bu yaxınlarda Səyyarə ananın vəfatının ildönü qeyd olundu.Onun məzarı önündə dayanan qızları analarının vaxtilə dediyi sözləri xatırlayıb,hönkür-hönkür ağladılar.
*Torpağın azad indi*
*Bu nə bəlaydı Nofəl?*
*Sil gözündən həsrəti*
*Vətən azaddır Nofəl.*
Belə analar kəndimizdə onlarcadır. Kişi qeyrətlli, igid dəyanətli, övladlarına həm ana, həm ata,həm qardaş olmuş analar…
Qarabağ müharibəsi analarımıza vurduğu fiziki və mənəvi yaralarla heç də öyünməsin.
Anaların ürəyi səma qədər sonsuzdur,məhəbbəti də,inamı da dözümü də dünyaya analar bəxş edib. Hər bir insanın qəlbində bu

sonsuzluğun, dözümün özünəməxsusluğu vardır. Biz son məzaradək analara çox borcluyuq.Analar bütün dövrlərdə mütəfəkkirlərimiz tərəfindən də yüksək qiymətləndirilmişdir. Bu nöqteyi nəzərdən C.Cabbarlının, M.Müşviqin, M.Cəlilin “Ana” əsərləri ana obrazının tərənnümündə çox dəyərli əsərlərdir.
Sonda Qarabağ analarının əvəzsiz olduqlarını, bir daha müasir müharibələrin onlara bəxş etdiyi nisgilli həyata baxmayaraq mübariz olduqlarını söyləməkdir.
Səyyarə ana yerin behişt olsun,qəbrin nurla dolsun!! Qalan analarına isə can sağlığı arzu edirəm!!



Əli KƏRİM

**Qayıt**

Həsrətin araya atdı, dağ, dərə,
Sönən işıq oldun, batan səs oldun.
Qayıt, mənim gülüm, qayıt bu yerə,
Ey mənim istəyim, nə gəlməz oldun?

Ümidlər, arzular pərən-pərəndir,
Qəlbə təsəllidir xatirələrim.
Bir halımı soruş, könlümü dindir,
Axşamlar yadıma düşür səhərim.

Qayıt, mənim gülüm, yerbəyer elə
Dərdli səhərləri, gecələri sən.
Çaşıb başqa yolla keçirəm elə,
Düz öz qaydasınca küçələri sən.

Qayıt, yerinə qoy Ayı, Günəşi,-
Yenə olduğu tək görüm həyatı.
Qayıt, gözüm nuru, könlüm atəşi,
Qayıt, səhmana sal bu kainatı

**İki sevgi**

Gözəl qız, sən saf susan,
İki qəlb arzususan.
Mən səni sevirəm
Sususzluğun od vurub köz kimi yandırdığı
dodaq su sevən kimi.
O isə səni sevir
rahatca bardaş qurub,
– Kabab üstdən sərin su pis olmaz – deyən kimi
Gözəl qız, sən işıqsan,
Yurduma yaraşıqsan.
Mənsə səni sevirəm
iynənin ucu boyda
İşığa həsrət qalan göz işıq sevən kimi
O isə səni sevir
Bir şən mağarda, toyda,
İşıqlardan yaranmış yaraşıq sevən kimi.
Danış, ucalsın səsin,
Qısılmasın nəfəsin.
Mən ki səni sevirəm
Bakıdan, Daşkəsəndən
Gələn bir səda kimi,
Səs kimi,
Qüdrət kimi
O isə səni sevir,
Gizli deyil ki səndən,
Bir otaq küncündəki qəmli sükunət kimi.
Bu mən, bu o, bu da sən,

De görək nə deyirsən!
Amma yaxşı fikir ver bu iki məhəbbətə.
Daha heç nə demirəm
Nöqtə, nöqtə və nöqtə.
1953



**O qıza**
Axtarıram mən səni,
Arayıram mən səni.
Soruşuram gözümlə ötüb keçəndən səni,
Axtarıram kitabda, arayıram həyatda.
Bilmirsən nə boydasan, nə görkəmdə, nə adda,
Sənin təhsilin nədir, sənin yaşın neçədir?
Aladırmı gözlərin, qaradırmı, necədir?
Bəlkə elə xalın var, ay ömrün rəfiqəsi,
Qoy qara xalın olsun həsrətimin nöqtəsi!
Bəlkə məndən böyüksən, bəlkə məndən kiçiksən;

Ol, kiçik ol. böyük ol, amma kamallı ol sən.
Kamal ol ki ömür bir şən nümayiş deyil,
Mənalı yaşamaqsa çox da asan iş deyil.
Ağıl da öz yerində. kamal da öz yerində.
Bir gözəllik də görüm mənalı gözlərində.
Kimə, niyə baxıram təkcə səni andırır.
Ürəyimdə sözüm var, ürəyimi yandırır.
O elə bir sözdür ki, dosta. yada deyilməz.
Anadan əziz nə var, anaya da deyilməz.
Əllərimi göynədir saçlarının həsrəti.
Gəl yiyəsiz qalıbdır könlümün məhəbbəti.
İşdir üz-üzə gəldik… Onda məndən utanma,
Ürəyindən keçəni nə gizləmə, nə danma
Gizləmə ki, danma ki, gedər hərə bir yana;
Qoyma canım od tutub yana, ömürlük yana.
Səni harda axtarım? De nəçisən? De kimsən?
Tez ol, görün, tez ol gəl, axtarıram səni mən!
Gözümdə, könlümdə qəm,
Yollarına bitmişəm.
İlk baharı gözləyən cavan bir ağac kimi.
Baharı gözləyirəm… Ay qız, gəl bahar kimi.

**Qaytar ana borcunu**

Bir gözəl, bir sevimli oğul böyütdü ana.
O bəd, uğursuz günü – ərinin öldüyünü
Bildirmədi heç ona.
Kədəri dalğa-dalğa doldusa da ürəyə
Lakin nə saç yolaraq verdi əsən küləyə,
Nə şivən etdi ana.
Ürəyində ağlayıb, gülmək öyrətdi ona,
Dözərək davanın da dərdinə, bəlasına,
Öz boğazından kəsib yedirdi balasına…
Bir oğul böyütdü ki, gur, çatmaqaş, gensinə.

Bir oğul böyütdü ki, oğul deyirəm sənə:
Atlını atdan salıb küləklərlə ötüşür.
Baxışından qızların ürəyinə od düşür.
Bir oğul böyütdü ki, oğul məktəb bitirdi,
Oğul instituta qızıl medalla girdi.
Ana fikirləşdi ki: “Gör neçə aya getdi?!”
Ana yuxularında tez-tez Bakıya getdi,
Ana məktub yazdı ki: “Yanıltma gümanımı,
Pul nədir, pul deyirsən, göndərərəm canımı”.
Nə zaman ki oğlunun getdiyi dörd il oldu,
Məktubları kəsildi, gəlmədi tətil oldu,
Ananı fikir aldı, ananın əsdi dizi
Ana müqəssir etdi, tramvayı, dənizi.
O yenə dözdü, durdu… O yolmadı saçını,
Səsləri qonşuları Əsmər, Çiçək bacını.
Yenə də azalmadı ürəkdən bala dərdi
Onlar oğul vermədi, onlar təsəlli verdi.
Məktub məktub dalınca axdı, Bakıya xdı,
Ana da məktubların dalınca baxdı, baxdı…
Məktublarsa Bakını dolandı, gəzdi, gəldi,
Məktublar əzik-üzük, məktublar bezdi gəldi,
Ana yenə də baxdı gah dolama yollara,
Gah da oğul boyuna həsrət qalan qollara.
Ana oğul böyütdü gur, çatmaqaş, gensinə,
Ana oğul böyütdü, özgəyə qismət oldu.
Ana fikirləşdi ki, mən neyləmişəm sənə?
Bu nə oğulluq oldu, bu nə məhəbbət oldu?
Oğul böyütdümü o büzmədodaq bir qıza?
Oğul böyütdümü o. min işvəyə, min naza?
Ana bilsəydi əgər böyütməzdi oğlunu,
Yox, bunu yandım dedim, yenə atmazdı onu.
Bir gözəl, bir sevimli oğul böyütdü ana,
Ürəyində ağlayıb gülmək öyrətdi ona.
Oğul! Nədir etdiyin bəs bu haq-say üçün?

Qaytar onun ömrünə neçə gecə, neçə gün!
Qaytar onun saçının qaralığını geri.
Qaytar o dilindəki şirin-şirin sözləri!
O sözü, o söhbəti gülüşü anan verib,
Ana dodaqlarından bala dodaqlarına.
İndi ondan gen gəzən oğul, ayaqlarına
Yerişi anan verib.
Qaytarsan o sözləri, sözsüz bir lal olarsan,
Qaytarsan o yerişi, yerindəcə qalarsan.
Qaytarsan o gülüşü hırıldamazsan daha
Qaytar, qaytar onları. qaytar qoyma sabaha!
Sən ki dərd verdin, oğul, sənə gülüş verənə.
Oğul demərəm sənə!
Deyirəm ki, o boyu, buxunu qaytar geri!
Deyirəm ki, varını, yoxunu qaytar geri!
Qaytar onun borcunu,
Gülüşünü, adını, sözünü qaytar geri!
Qaytar ana borcunu,
O borc sənin özünsən, özünü qaytar geri!

**Atamın xatirəsi**
O sərt idi. Səhər dərsə tələsəndə mən
Bildirməzdi yolda durub boylandığını.
Bircə dəfə söz açmazdı qəlbindəkindən,
Söyləməzdi övlad üçün çox yandığını.

Gizli-gizli məni süzüb gülərdi bəzən
Durub-durub güc gələrdi əyri qəlyana.
Övladına bircə dəfə "can" söyləməkdən
Övlad üçün can verməyi daha asandı ona.

Əməksevər. ağır, enli, cod əli vardı,
Tale kimi endirərdi çiynimə hərdən

Sərt üzünə bircə anlıq səhər doğardı
Bilməzdim ki, hansı nurlu düşüncələrdən.

Sevgisi də soyuq idi – təzə əkini
Hər bəladan hifz eləyən qar kimi.
Moskvada oxuyurdum,
Tərk etdi məni.
Gələn kimi bir əbədi ayrılıq dəmi
Gah istəyib məni görə. Gah deyib ki mən
Qoy bilməyim
O utanıb öz ölümündən
Ah, o niyə belə etdi, bu nə qubardı?
Nə zamansa bu nişanda bir atam vardı.

***
Bəzən haqq qazanır insan öləndə,
Hətta unudulur ağır günahı
Hamıya dərd olur cavan getməyi,
Oduqca az görüb, az yaşamağı…

Deyirlər:”bilsəydik, ayıq olardıq
Onu qoyardıqmı heç gözdən iraq?
Hər bir dərdinə də çarə tapardıq,
Nə bilək, o belə az yaşayacaq?”

Eh! Bu gün nə qədər xəyala daldım,
Eh! Qəlbim nə qədər alışdı, dindi.
Sən mənim qədrimi biləsən deyə
Bu cavan yaşımda ölümmü indi?

**İlk görüş**

Nə vaxt görüşmüşük?
Harda? Nə zaman?
Doğrusu, elə bil yadımdan çıxıb.
Təbəssüm səhəri doğdu üzündən,
Dayandın ehmalca əlimi sıxıb.

Sözlərin qırıldı, töküldü bir-bir;
Çırpdı divarlara, daşlara külək.
Kəlmələr dağıldı sahil boyunca
Yorulmuş bir gülün ləçəkləri tək.

Əynində sevincdən biçilmiş ağ don,
Gözündə çaşqınlıq ala-toranı.
Əllərin qonmağa bir yer tapmadı,
Sındırdın az qala barmaqlarını.

Sonra da gözlərin sirli söhbəti:
– Sevirsən?
– Sevirəm.
– Hər zaman?
– Hər an!
Sonra da dillərin şirin yalanı:
– Sevmirsən?
– Sevmirəm?
İndi o vaxtdan:

Saatlar,
həftələr, illər ötüşür.
Amma o ilk görüş yaşayır hələ.
Qocalmır, zamana yanıqlar verib,
Yaşayır hər yeni görüşümüzlə.

İlk görüş yox olsa, yox olub gedər,
Dönər bir heçliyə görüşlərimiz…
Görüşlər hamısı vərdişə dönər,
Bəlkə bir saatda qocalarıq biz.

Hər yeni görüşlə ilk görüş gəlir,
Bütün görüşlərə nur səpir bir-bir.
İlk görüş həmişə arxada deyil,
İlk görüş bəzən də gələcəkdədir.

**Nə xoşbəxt imişəm bir zaman Allah**
Nə xoşbəxt imişəm bir zaman, Allah,
Xəbərim olmayıb bu səadətdən.
Nə xoşbəxt imişəm,
nə xoşbəxt,
xoşbəxt!
Bu gün eşitmişəm bunu həsrətdən.
Niyə yazmamışam o zaman, Allah,
Əlimə qələm də gəlməyir indi.
De, niyə aradan küləklər əsir?
Aramız, de, niyə belə sərindir?
İçdiyim o su da səadət imiş,
İşə getməyim də, qayıtmağım da.
Ona baxmağım da xoşbəxtlik imiş,
Onu yuxusundan ayıltmağım da.
Dünya başdan-başa səadət imiş,
Mənsə bu dünyanın qoynundayammış,

Dünya fırlanırmış sevinc gücüylə,
Bəs indi nə olub belə dayanmış?
Göylər səadətin çətiri imiş,
Torpaq da səadət məhvəri imiş.
Gecələr toranlı vüsal məskəni,

Hər səhər,
ruhumun səhəri imiş.
Dilin quruyaydı sənin, ay həsrət,
Sən bu gün könlümü tarımar etdin.
Ya bunu vaxtında deyəydin mənə,
Ya da ki lal olub heç dinməyəydin.
Dünya başdan-başa səadət imiş,
Görəsən, heç bir də olarmı yenə?
Dünya başdan-başa nə imiş dedin?
Dünya başdan-başa nə imiş, de nə?

**Şəhidlik zirvəsi**
*“Zahidin bir barmağın kəssən,*
*dönüb həqdən qaçar*
*Gör bu gerçək aşiqi sərpa soyarlar, ağrımaz”*
**İmadəddin Nəsimi**
I

Altı yüz ildir idrakçırpınır pələng kimi
Nərə çəkir
ağlayır
tapa bilmir ki, bilmir –
o bir sirri-xudanı.
Təpədən dırnağadək
soyalar bir adamı;
Necə ola dinməsin,
Böyük əqidəsindən
Bir misralıq enməsin.
Gözündən bir nöqtə yaş
sinəsinə düşməsin.
Qaşları çatılmasın
bir xırda vergül qədər,
Diri-diri soyulsun,

əqidədən keçməsin.
Altı yüz ildir bəşər
ağrılardan inidlər
Altı yüz ildir bəşər
düşünər,
çatmaz yenə
Məşəqqətli ölümün
Nəsimi zirvəsinə.
Altı yüz ildir,
altı
Nəsimini soyurlar,
Qanlı yaralarına hələ də duz qoyurlar.
“Uf” da demir
Nəsimi
Əmmaməlilər baxır
dəli suçlular kimi
Təpədən dırnağadək
soyurlar
özləri qorxur neçin?
Göylərə göz dikirlər.

Şəhidigörməməkçün,
İlahi də görünmür! –
Onun qorxusu nədir?
Niyə azad eləmiş,
Hər ağrıdan şəhidi?
Şəki-şübhə başını
qaldırdı,
dedi,
“Ay aman,
Tanrı dəhşətə gəlmiş
qaçmış yaratdığından!”
Təpədən dırnağadək

Əqidə olan kəsi
Dırnaqdan təpəyədək
Soydu xəncər tiyəsi
Şəhid, odur
nə dindi
göz yaşı tökdü nə də,
O oldu yer də
göy də
ilahi də
bəndə də
Amalıyla ağrısı
biləşib daha güclü
bir qanadla
Tanrı tutası yerə
uçub, o bülənd oldu
Küfr edən də çox oldu
duyub bilən də oldu

II

Yarım ölümdən ötrü
azmı ağlayan olmuş
Azmı könlə,
beyinə
qorxu qurşunu dolmuş?
Xırda yarasının da
ağrısını
doğmaca balasıyla
bölənlər
Ölümün gəlişini
eşidəndə ölənlər
Bir qəzəbli baxışın
ucunda tir-tir əsən

Adam görsən, Nəsimi,
əlbət, heç nə deməzsən
Ləkələnməzsən əsla
Yazmaq istedadını,
ölmək istedadını,
Dinməzsən ucalardan,
Enməzsən ucalardan.

Epiloq

O, altı yüz il qabaq
Dərisindən çıxaraq
Göylərə baxa-baxa
Dözüb hər məşəqqətə
Getdi əbədiyyətə
Al-qanı axa-axa,
Yeridi, gücü artdı
Tarixləri qızartdı.

*İlkin mənbə: /manera.az/*

**Redaktor  seçimi.**



**Zaur USTAC**

**ANA DİLİM**
Bu şip-şirin Ana dilim,
Həm də qutlu sancağımdır!
Min illərdir Ata Yurdun
Sərhədini bəlirləyir…
Ta Şumerdən üzü bəri,
Dədəm Qorqud öyüd verib,
Şah İsmayıl fərman yazıb,
Qoç Koroğlu nərə çəkib…
Ulu Babəkin fəryadı,
Füzulinin ah-naləsi,
Nəsimin şah nidası,
Bu dildədir!!!
Bu dil, Tomrisin dilidir;
Layla deyib,
Hökm verib…
Min illərdir Ata Yurdun
Sərhədinin keşiyində
Əsgər kimi durub, bu dil!!!
Ana dilim həm əsgərdir,
Həm də sərhəd!!!
Toxunulmaz bir tabudur!!!
***19.02.2023. Bakı.***



*Fotoda Səttarxan və oğlu Yadulla1907-ci il.*

**XİSLƏTİMİZ**

Bilirik;
Zaman nisbidir,
Məkan müvəqqəti…
Adlar müxtəlifdir,
Kimliklər fərqli…

Fəqət, sabit bir cövhər var;
O xislətdir!
Yaşayır;
Ana dilimdə,
Ata sözümdə…
Qorunur;
Laylalarda,
Bayatılarda,
Dastanlarda…
Nə qədər ki, dilim var;
Doğulacaq,
Yaşayacaq,
Səttarlar!!!
***30.01.2023. Bakı.***

**DİLİM**

Bura Ərdəbilimdir,
Ərşi dilim-dilimdir,
Kimliyimi yaşadan
Baldan şirin dilimdir!!!
***23.02.2023. Bakı.***



**Murad MƏMMƏDOV**

**???...**

Yaşamaq gözəl hissdir,
Sənə dəyən olmasa.
Dünyanın nəyi pisdir,
İnsan yaşa dolmasa?!
* * *
Gül canıyla əlləşər,
İstidən bağrı bişər.
Onlar da gözdən düşər,
Saralmasa, solmasa.
* * *
İnsan qisas alarmı,
Bir-birini çalarmı,
Kin, küdurət olarmı,
Pislik yadda qalmasa?!
* * *
Saf eşq səni əyərmi,
Sevən özün öyərmi,
Yaşamağa dəyərmi,
Yar qadanı almasa?!
* * *

Murad görür, götürür,
Ətrafına ötürür,
Baxır, dünya itirir,
Gündə təbil çalmasa.

**DAMLA-DAMLA**

Damla-damla ömür axır,
Can quruyur, yanaq solur.
Günahlarım dönüb baxır,
Yaddaşıma pərçim olur.
* * *
Günahımı yuyammıram,
Çalışıram təmiz olam.
Bu dünyadan doyammıram,
İzi itən bir dar yolam.
* * *
Tükənməyir arzularım,
Bu dar yolun sonundayam.
Üç övladdı mənim varım,
Mən onların canındayam.
* * *
Tanrım, sevgim sənə görkdü,
Çarəsizəm, qolum bağlı.
Baxan deyir canı bərkdi,
Daş kimidi zalım oğlu.
* * *
Mənə canı verən sənsən,
Yaş artdıqca kölgəm itir.
Günahımı görən sənsən,
Ya bağışla, ya da bitir.



**XOŞ GƏLDİN**

*(60 yaşın astanasında öz-özümlə söhbətim)*

Getdiyim bu yolun sonu işıqdır,
Bilməsəm, bir addım atarammı heç?!
Qismətim ömrümə bir yaraşıqdır,
Bu qismətə haram qatarammı heç?!
* * *
Bu yolun əvvəli gün kimi aydın,
İşıqlı sonuna arxayınam mən.
Etdiyim səhvləri hərdən bir saydım,
Ancaq istəmişəm hey yayınam mən.
* * *
Demirəm sərrafam, naşıyam mən də,
Dünyanın çəmini tapa bilmədim.
Kefim kök olardı kənarda, gendə,
Amma dar ayaqda heç vaxt gülmədim.

* * *
Bu dünya fanidi, mənə də qalmaz,
Mən mələk deyiləm, çox günahım var.
Nə qədər yaxşılıq etsəm bəs olmaz,
Bir kəsə çəp baxsam dünya dağılar.
* * *
Altımış yaşım var çox şeyi gördüm,
Həyatın dəyişməz qanunları var.
Bezmədim ağrı da, kədər də dərdim,
Bildim ki, yaxşı gün məni də tapar.

**BƏZƏN**
Bəzən qanın qaralar,
Bəxtin səni öyməsə.
Hər bir dərdə çarə var,
Allah səni döyməsə.
* * *
Yüz səhv edər dayanmaz,
Günahını sayanmaz,
Baxma, insan oyanmaz,
Başı daşa dəyməsə.
* * *
Düzdə xana qurulmaz,
Piylənmiş baş durulmaz,
İnsan oğlu qırılmaz,
Dövran onu əyməsə.
* * *
Ruhum safdı, qoyarmı?!
Heç şeytana uyarmı?
Murad sənə qıyarmı?
Dilin onu söyməsə.

**O**

Sevən ürək paxıl olmaz,
Halal, təmiz doğular o.
Sevən kəsdə ağıl olmaz
Eşq içində boğular o.
* * *
Uşaq kimi tez aldanar,
Sevdiyini canı sanar,
Öz eşqini bəzən danar,
Öz içinə yığılar o.
* * *
Evdə qalsa, tək qarıyar,
Bəxti korsa, susar, duyar,
Eşqdən solar, tam quruyar,
Kor bulaq tək soğular o.
* * *
Dara düşsə, susmaz, dinər,
Hikkəsiylə səni yenər,
Məhvərindən silkələnər,
Kərpic-kərpic dağılar o.
* * *
Yarı ölsə o an solar,
Susar, dinməz, fikrə dalar,
Sevdasından dəli olar,
Məcnun deyə çağrılar o.

**DÜNYANIN**

Gözü doymaz bu dünyanın,
Hər gün gedib gələni var.
Dərdə düşüb ağlayanı,
Sırtıq-sırtıq güləni var.
* * *
Qaraqışqırıq salanı,
Ömrünə balta çalanı,

Yalandan nəfəs alanı,
Ayaq üstə öləni var.
* * *
Dar ayaqda zaman getməz,
Dərd qurtarmaz, azar bitməz,
Eh, aşmağa ömür yetməz,
Yüz təpəsi, bələni var.
* * *
Murad, boylan, sən də dur keç,
Vaxtın varsa bir yuva seç,
Hamı nankor olarmı heç,
Qədir-qiymət biləni var.

**60 YAŞIMA**

Bu da bir qismətdi, buna da şükür,
İlahi, başqa bir umacağım yox.
Duyuram ürək də qaş-qabaq tökür,
Təkəm, sığınmağa bir qucağım yox.
* * *
Hər kəsin sonu var, bunu bilirəm,
Bu ömür alnıma yazılan yazı.
Allahın əlindən tutub gəlirəm,
Nə vaxt ki buraxdı, bitər ən azı.
* * *
Bu ömrü sevərək duydum, yaşadım,
Çalışdım düz gedəm yolumu hər an
Hər il bir nişanə qoydum, yaşadım,
Bildim ki, məni də udacaq zaman.
* * *
Ruhum tər-təmizdi axar su kimi,
Hər günə şükr edər, sevinər, gülər.
Hələ ki sınmayıb könlümün simi,
Kökdədi, hər nəğmə çalına bilər.
* * *

Bu ürək çox dözdü mənim oduma,
Dinmədi, görmədi üzümdə kədər.
Ləkə gətirmədi mənim adıma,
Nə də incitmədi bu vaxta qədər.
* * *
İlahi, hər zaman sənə borcluyam,
Ağlım üstümdədi, təbim rəvandı.
Bilirsən əzəldən nəçiyəm, oyam,
Cismim qocalsa da, ruhum cavandı.

**SEVİN**
Siz ey mənim əzizlərim, qismətdəki adı sevin!
Hər bir dilə vaqif olun, demirəm ki yadı sevin!
* * *
Eşqə biganə qalmayın, sevginizə sadiq olun,
Millətimin eşq simvolu Şirini, Fərhadı sevin!
* * *
Şirinliyi dil anlayar, tez ötürər beyinlərə,
Sərraf olun, aqil olun, ağzınızda dadı sevin!
* * *
Dostluq edin, seçin hər vaxt fərəhlənən könülləri,
Müxənnətdən uzaq olun, arayın, dilşadı sevin!
* * *
Heç qəzəl yazmamışam, anlayıram mən ərk elədim,
Vaxtınız olsa əgər, bir az da bu Muradı sevin.

**BİLİNMİR**
Bir sual həmişə hey yorar məni,
O nədi heç zaman yaşı bilinmir.
Nə bir ölçüsü var, nə bir ölçəni,
Bu işdə nə usta, naşı bilinmir.
* * *
Əvvəl gəl-gəl deyər, üzünə gülər,
Həyatda hamının başına gələr,

Sonu nə olacaq, bir Allah bilər,
Axırı, əvvəli, başı bilinmir.
* * *
Ay Murad, naşısan, sən də çox oxu,
Görmədim doyanı, harını, toxu,
O elə dağdı ki çıxammır çoxu,
Ətəyi, zirvəsi, qaşı bilinmir.

**DEYİLMİŞ!**
İçimdə o qədər ağrı-acı var,
Baxıram, bu dünya mənlik deyilmiş!
Çevrəmdə o qədər qardaş, bacı var,
Dərdimi soruşmaq sənlik deyilmiş!
* * *
Başım açılmayır mərəkə, yasdan,
Nə səndən yarıdım, nə də ki, dostdan,
Sanki sıxılıram bu basa-basdan,
Ayılıb görürəm tünlük deyilmiş!
* * *
Üzümə baxanlar dərdimi anlar,
Mənə yad deyil ki, qohumdu onlar,
İllərin dərdimlə ortaqlığı var,
Nə aylıq, nə də ki, günlük deyilmiş!
* * *
Ay Murad, taleyin min oyun oynar,
Köksün alovlanar, qaynar ki, qaynar,
Baxma, dərdlərinin hər an həlli var,
Əgər həlli yoxsa, tənlik deyilmiş.



## Tuncay ŞƏHRİLİ

**ANA**
*(Anamın ad günü münasibəti ilə)*
Qayğımıza qalan, anadır, ana.
Varmı bu dünyada, anadan əziz?!
Dünyanın bəzəyi, anadır, ana.
Ananın özüdür, anadan əziz…
***
Harda bir bala var, orda ana var,
Analar olmasa, bala da olmaz!
Dünyanı sözüylə bəzər analar,
Analar olmasa, dünya da olmaz!!!
*27.10.2018.*




YAZARLAR.AZ

## “YAZARLAR” FOTO QALEREYA, JURNAL PDF

Bu sayımızdan başlayaraq ***“Yazarlar” foto qalereya*** rubrikasında hər yeni ayın buraxılışında ötən ay baş tutmuş tədbirlərdən fotolar yayımlanacaq. Rubrikadan texniki redaktor Tuncay Şəhrili məsuldur.

**ELAN**

“Yazarlar” jurnalının Aprel -2023 sayından etibarən ***“Qononarlı yazı”*** rubrikamız fəaliyyətə başlayacaq. Bu barədə **YAZARLAR.AZ** saytında ətraflı məlumat veriləcək. İzləyin.

**"YAZARLAR" FOTO QALEREYA, JURNALI PDF**



***ZAUR USTAC GÜLHÜSEYN KAZIMLIYA "İSA MUĞANNA" DİPLOMUNU TƏQDİM EDİR. (17.02.2023. BAKI. AYB.)***

**HAZIRLADI: TUNCAY ŞƏHRİLİ**

**TUNCAY ŞƏHRİLİNİN KİTABI**
**PDF>>>ZAUR USTAC UŞAQ ŞEİRLƏRİ**
**PDF: >>>>> ZAUR USTAC "QƏLƏMDAR-2"**
**PDF>>> ZAUR USTAC "BB" KİTABI**
**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**
**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**




**Ana (rəsm).** ***Rəssam:*** ***Natiq NƏCƏFZADƏ***

## QEYDLƏR




**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

**"YAZARLAR" JURNALI PDF**

**YAZARLAR.AZ**

==================================================

<<<<<< WWW.USTAC.AZ və WWW.BİTİK.AZ >>>>>>
*Əlaqə:* Tel: (**+994**) 70-390-39-93 E-mail: zauryazar@mail.ru

**“TƏRƏFSİZ ƏDƏBİYYAT TARİXDİR!”**

Jurnal bu layihə çərçivəsində ödənişsiz əsaslarla nəşr olunur.

**Redaksiyanın ünvanı:** Az-1012, Bakı, M.Xiyabani-14a
Dövlət qeydiyyatı: № 2319, 16.08.2007-ci il.
Əvvəlki illərdə 15 xüsusi buraxılışı olub.
Dövri olaraq 2021-ci ildən çıxır.

E-mail: zauryazar@mail.ru

Rəsmi saytı: **WWW.YAZARLAR.AZ**
Telefon: (012) 430-14 -81 (+994) 70-390-39-93

“Yazarlar”ın redaksiyasında yığılıb səhifələnir,
“El kitab çapı” mərkəzində çap olunur.
Çapa imzalanıb: 01.03.2023
Sifariş: №:19
Format: A 5
Tiraj:100.
Elektron variant var.
Qiyməti: PULSUZ.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.